# Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımı təqdim edirik: "Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir".

*XQ*


Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir.


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 281 (30685) 20 dekabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan Qərblə də, Şərqlə də müstəqil siyasət aparan ölkədir

**Bütün suallara aydın və dürüst cavablar, mövzunun kontekstinin sərhədlərini aşan strateji tezislər, planetin siyasi gələcəyi ilə bağlı praqmatik–diplomatik proqnozlar və ən başlıcası, jurnalistin eşitmək istədiyi birmənalı və cəsarətli şərhlər. Bunları söyləməyə bizə əsas verən Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsindən yaranan qənaət və təəssüratlarımızdır.**

Müsahibədə toxunulan məsələlər o qədər çeşidli, mövzuların coğrafiyası o qədər geniş idi ki, bütün bunları cavablandırmaq üçün təkcə xeyli vaxt deyil, həm də ciddi və hərtərəfli diplomatik hazırlıq tələb olunurdu. Rusiya teleməkanında tanınmış, peşəkar teleaparıcı Dmitri Kiselyovun həmsöhbəti – Prezident İlham Əliyev bütün sualları heç bir konspekta, əvvəlcədən hazırlanmış qeydlərə baxmadan cavablandırdı. Dəsək ki, təcrübəli teleaparıcının üzündə hərdən nəzərə çarpan heyrət və təəccübün bir səbəbi də cənab Prezidentimizin hazırcavablığı idi, yəqin, yanılmarıq. İndi isə mətləbə keçək. Konkret olaraq, cənab Prezidentin D.Kiselyovun Azərbaycanın Şərq və Qərbə, Rusiyaya və ABŞ–NATO-ya münasibətdə tutduğu mövqe ilə bağlı suallarına verdiyi cavablarına.

*(ardı 3-cü səhifədə)*

## *Prezident İlham Əliyevin son açıqlamaları bölgədə və dünyadakı vəziyyətə konseptual baxışdır*



# Sülh müqaviləsi üçün iki mühüm şərt

## *Ermənistan bununla ya razılaşmalıdır, ya da...*

**Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində bir çox məqamlara toxunduğu kimi, Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də münasibət bildirdi. Ölkəmizin lideri məsələ barəsində söz açarkən, iki mühüm məqamın üzərində dayandı ki, əslində, bu mövqeyi əvvəllər də səsləndirmişdi. Prezidentin hazırda həmin məsələləri yenidən gündəmə gətirməsi isə Azərbaycan dövlətinin prinsipial və qətiyyətli yanaşmasından geri çəkilməyəcəyinin növbəti sübutudur.**

Ermənistan rəhbərliyində təmsil olunanlar Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri ciddi şəkildə diqqətə almalı və birmənalı şəkildə bilməlidirlər ki, həmin şərtlər yerinə yetirilməyəcəyi təqdirdə, Bakı İrəvanla sülh razılaşmayacaq. Şərtlər isə sadədir. Birincisi, Ermənistan Konstitusiyasına dəyişikliyin edilməsi, ikincisi, ATƏT-in canını tapşırmış Minsk qrupunun rəsmi şəkildə ləğvi. Beləliklə, ikinci şərtdən başlayaq.



*(ardı 4-cü səhifədə)*

# Bakı limanı genişlənir

Səhifə ⇨ 8






## "Böyük manipulyator"

Səhifə ⇨ 5

## Aqrar subsidiya bolluğa təkan verir



Səhifə ⇨ 8

## Avropa Gürcüstana təzyiqləri azaldacaqmı?

Səhifə ⇨ 11

# QAFQAZ uğrunda döyüş

**Bu ifadəni Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Gürcüstandakı proseslərə münasibət bildirərkən səsləndirib. Dövlətimizin başçısı diqqətə çatdırdığımız ifadə ilə qonşu ölkədə parlament seçkiləri sonrası yaşanan durumu və bunun bütövlükdə regiona təsir amplitudasını dəqiq təsvir edib.**




Həqiqətən, hazırda Gürcüstan uğrunda döyüş gedir. Elə bir döyüş ki, onun Azərbaycana təsiri şübhəsizdir. Rəsmi Bakı məhz buna görə Gürcüstan amilinə böyük əhəmiyyət verir, dövlətimizin başçısı orada yaşananların göründüyündən daha geniş mahiyyət daşıdığını vurğulayır.

Qafqaz uğrunda döyüş amansızdır. Qalib gəlməyə çalışan Qərb bütün riyakarlıqları ilə Gürcüstana köklənib və onun yanaşması demokratik prinsipləri heçə saymaqdır. Qərb, nəyin bahasına olursa-olsun, gürcü iqtidarını devirmək və özünə sərfəli qüvvələri hakimiyyətə gətirmək barədə düşünür və planlarını reallaşdırmaqda israrlıdır.

*(ardı 3-cü səhifədə)*

# Erməni lobbisi ölkəmizə qarşı total hücuma keçib

## *Azərbaycan həqiqətləri bu düşmənçiliyin qarşısına sədd çəkir*

**Dünyanın hər yerində, əsasən Qərb dövlətlərində "lövbər salmış", həmin ölkələrin siyasi elitası, qanunvericilik orqanlarının üzvləri, ictimai və mədəniyyət xadimləri, jurnalistləri ilə "işgüzar" əlaqələr qurmuş erməni diasporu və lobbisi Azərbaycana qarşı total hücuma keçib.**



Özlərini tarix boyu "məzlum xalq" kimi qələmə verən, "əzabkeş" obrazı formalaşdıran, "soyqırımı"na məruz qaldıqları yalanını uyduran haylar işlərini əsasən böyük dövlətlərin vasitəsilə aşırmağa çalışıblar. Bu çərçivədə ABŞ ilə münasibətlərin hər zaman yüksək səviyyədə olması ermənilər üçün müstəsna əhəmiyyət daşıyıb. Təsadüfi deyil ki, ABŞ-nin 39-cu prezidenti Cimmi Karterin milli təhlükəsizlik üzrə müşaviri (1977–1981), uzun müddət ABŞ xarici siyasətinin aparıcı ideoloqlarından biri olan Zbiqnev Bjezinski vaxtilə erməni lobbisini Amerikadakı ən effektiv etnik lobbilərdən biri adlandırmışdır.

*(ardı 4-cü səhifədə)*

## İsveçrə parlamenti Qarabağ həqiqətlərini ciddi təhrif edir

Səhifə ⇨ 9

# Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsi, o cümlədən məhsuldarlığın yüksəldilməsi, bu sahədə idarəetmə və nəzarət sisteminin təkmilləşdirilməsi, ətraf mühitə təsiri nəzərə alınmaqla balıq resurslarının formalaşdırılması, habelə balıq ovunun və akvakultura təsərrüfatlarının müasir tələblərə uyğun təşkili və tənzimlənməsi məqsədilə **qərara alıram:**

**1.**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi" (bundan sonra – Mərkəz) publik hüquqi şəxs yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Mərkəz balıqçılığın, o cümlədən akvakulturanın təşkili, idarə edilməsi, balıq və digər su bioresurslarının artırılması, istifadəsi, mühafizəsi və onlara nəzarət sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

2.2. Mərkəzin nizamnamə fondu 1.000.000,0 (bir milyon) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

**3.** Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Mərkəzin nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onun dəyişdirilməsi;

3.1.2. Mərkəzin yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakı məsələlərlə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında, balıqçılığın kənd təsərrüfatı məhsullarının istehsalı və emalına aid edilməsi, habelə bu sahədə dövlət dəstəyi mexanizmlərinin tətbiqi;

4.1.2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifləri əsasında, akvakultura təsərrüfatlarının qurulması üçün uyğun torpaq sahələri və su obyektləri, habelə balıqçılıq sahəsində normativ hüquqi aktların, o cümlədən akvakultura təsərrüfatlarının uçotu və fəaliyyətinin həyata keçirilməsi ilə bağlı tənzimləmənin təkmilləşdirilməsi;

4.1.3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balıqçılıq sahəsində funksiyalarının həyata keçirilməsi üçün maddi-texniki təminat məsələlərinin həll edilməsi, digər dövlət orqanlarının (qurumlarının) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin bu Fərmanın 2.1-ci bəndində müəyyən edilmiş istiqamətlər üzrə fəaliyyətinin həyata keçirilməsinə xidmət edə bilən dövlət əmlakının inventarizasiyasını apararaq, həmin əmlakın Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansına verilməsi;

4.2. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

4.3. vahid büdcə təsnifatı üzrə balıqçılığın (o cümlədən balıq ovunun) kənd təsərrüfatı bölməsinə daxil edilməsi, habelə dövlət büdcəsinin layihəsi hazırlanarkən dövlət büdcəsinin xərc istiqamətləri üzrə balıqçılıq (o cümlədən balıq ovu) ilə bağlı müəyyən edilmiş vəsaitin Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılması ilə əlaqədar tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

5.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.2. Mərkəz dövlət qeydiyyatına alındıqdan sonra akvakultura təsərrüfatlarının, habelə balıq və digər su bioresurslarının ovu ilə məşğul olan balıqçılıq subyektlərinin "Elektron kənd təsərrüfatı" informasiya sistemində qeydiyyatının aparılması, sahə üzrə sahibkarların məlumatlandırılması, habelə "balıqçılıq" altsisteminin formalaşdırılması ilə bağlı tədbirlər görsün;

5.3.bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

6.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə, bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla, təsərrüfatların uçotunun aparılması məqsədilə, ölkədə faktiki fəaliyyət göstərən və uçotda olmayan akvakultura təsərrüfatlarının ətraf mühitə təsiri qiymətləndirilməklə monitorinqlərinin aparılması ilə bağlı tədbirlər görsün;

6.2. Mərkəz dövlət qeydiyyatına alındığı günədək bu Fərmanın 2.1-ci bəndindən irəli gələn hüquq və vəzifələrin həyata keçirilməsini davam etdirsin.

**7.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

7.1.bu Fərmanın 2.2-ci bəndi nəzərə alınmaqla, bu Fərmanın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin və hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

7.2.bu Fərmanın 5.2-ci bəndində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

**8.** "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 169 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.12-ci bənddə "Səhiyyə Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, balıq və digər su bioresurslarının ovuna münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

8.2.2. 17-ci bənddə "Ekologiya və Təbii Sərvətlər" sözləri "Kənd Təsərrüfatı" sözləri ilə əvəz edilsin.

**9.** "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 722 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 383 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.3-cü bənddən ", 28-ci maddəsinin birinci hissəsində" sözləri çıxarılsın və həmin bənddə "Ekologiya və Təbii Sərvətlər" sözləri "Kənd Təsərrüfatı" sözləri ilə əvəz edilsin;

9.2.2. 4–2.6-cı bəndlərdə "Ekologiya və Təbii Sərvətlər" sözləri "Kənd Təsərrüfatı" sözləri ilə əvəz edilsin;

9.3. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. həmin Qanunun 28-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;".

**10.** "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 342 (Cild I) 2.2-1-ci bəndində hər iki halda "Xüsusi Dövlət Mühafizə" sözləri "Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz olunsun və həmin bəndə "Xidməti" sözündən sonra ", balıq və digər su bioresurslarının ovuna münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri əlavə edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301; (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2-ci hissəyə, 10.1-ci, 10.4-cü və 11.1-ci bəndlərə "məhsullarının" sözündən sonra ", o cümlədən akvakultura obyektlərinin" sözləri əlavə edilsin;

11.2. aşağıdakı məzmunda 11.33-2 – 11.33-22-ci bəndlər əlavə edilsin:

"11.33-2. şəhərlərdə və Xəzər dənizi sahillərində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsinin sahilboyu 20–50 metrlik zolağının altındakı torpaq sahələri istisna olmaqla) balıq məhsullarının satışı üzrə ixtisaslaşmış bazarların təşkili üçün müvafiq torpaq sahələrinin ayrılmasına razılıq verilməsini, torpaqların kateqoriyalara aid edilməsinə və onların bir kateqoriyadan digərinə keçirilməsinə rəy verilməsini təşkil etmək;

11.33-3. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulduqda, qiymətli balıq və digər su bioresursları növlərinin üstün mühafizə rejimini müəyyən etmək, balıqçılıq subyektlərinin uçotunu aparmaq;

11.33-4. ölkənin daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində suyun bioloji sərvətlərinin istismarı həcmini və elmi əsaslandırılmış rejimini müəyyən etmək;

11.33-5. balıqartırma və balıqyetişdirmə müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərini dəyişdirmədən balıqçılıq haqqında qanunvericiliyə uyğun akvakultura (o cümlədən dəniz akvakulturası (marikultura) əmtəə balıqçılığının yaradılması üçün tədbirlər görmək;

11.33-6. ixtisaslaşmış balıq məhsulları satışı bazarlarının yerləşmə sxemini aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla müəyyən etmək;

11.33-7. dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi məqsədilə akvakultura subyektləri ilə müqavilələr bağlamaq, aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi, balıqçılıq su obyektlərinin balıqçılıq təsərrüfatının monitorinqi, kadastrı və meliorasiyası işlərini həyata keçirmək;

11.33-8. nərə cinsli balıqların və digər qiymətli balıq növlərinin artırılması istiqamətində tədbirlər görmək;

11.33-9. akvakultura təsərrüfatı subyektləri üçün bioloji və texnoloji əsaslandırmanı qeydiyyata almaq və şəhadətnamə vermək;

11.33-10. balıq və digər su bioresurslarının bərpası və mühafizəsi məqsədilə törədici balıqların və onların sürülərinin yaradılması, saxlanması, istifadəsi üzrə texniki normativ hüquqi aktlar qəbul etmək, törədici balıqların və onların sürülərinin uçotunu aparmaq;

11.33-11. balıq və digər su bioresurslarının iqlimləşdirilməsinə və iqlimləşdirilmə obyektlərinin daşınmasına nəzarət etmək;

11.33-12. balıqçılıq haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada artırılması və yetişdirilməsi nəzərdə tutulan nərə cinsli, keçici, yarımkeçici balıqların törədicilərinin tədarükü məqsədilə balıq və digər su bioresurslarının ov vətəgələrinin yaradılması barədə təkliflər hazırlamaq;

11.33-13. daxili su obyektlərindən səmərəli istifadə etməklə, artırılması və yetişdirilməsi nəzərdə tutulan vətəgə əhəmiyyətli balıq növlərinin törədici fondunun yaradılmasına və qorunub saxlanılmasına dair təkliflər hazırlamaq;

11.33-14. balıqartırma müəssisələrində balıqçılıq haqqında texniki normativ hüquqi aktlara uyğun olaraq törədici balıqların, balıq körpələrinin və inkubasiya edilən kürülərin inventarlaşdırılmasını aparmaq, balıq və digər su bioresursları körpələrinin su obyektlərinə buraxılışı aktını tərtib etmək;

11.33-15. Azərbaycan Respublikasının su obyektlərində balıqçılığa aid qanunvericiliyə uyğun olaraq, Xəzəryanı dövlətlər arasında bağlanılmış beynəlxalq müqavilələr və digər beynəlxalq hüquq normaları əsasında xarici dövlətlərin hüquqi və fiziki şəxslərinə, balıq və digər su bioresurslarından istifadə hüququ verilməsini təmin etmək;

11.33-16. balıq və digər su bioresurslarının sənaye ovu ilə məşğul olan hüquqi və fiziki şəxslərə vətəgə sahələrinin, idman və həvəskar ov üçün dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərinin və ya onların müəyyən hissəsinin ayrılmasına dair tədbirlər görmək;

11.33-17. Azərbaycan Respublikasının daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində suyun bioloji sərvətlərinin istismarının həcmini və elmi əsaslandırılmış rejimini müəyyən etmək, o cümlədən, onların ovu və artırılması ilə bağlı işləri tənzimləməklə, süni yolla çoxaldılmasını həyata keçirmək;

11.33-18. hər il növbəti təqvim ili üçün balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarının (kvotasının), balıq və digər su bioresurslarının ovu üçün kvotaların ov növləri üzrə bölgüsünü müəyyənləşdirmək;

11.33-19. təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılmasına nəzarət etmək;

11.33-20. Xəzər dənizində (gölündə) balıq və digər su bioresurslarının iqlimləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin nəzərə alınmasına, Xəzər dənizinə (gölünə) iqlimləşdirilmə məqsədilə nərə cinsli və digər qiymətli balıqların yeni növlərinin buraxılmasına nəzarət etmək;

11.33-21. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş nadir və nəsli kəsilməkdə olan balıq və digər su bioresurslarının qorunması üçün müvafiq rejim və xüsusi mühafizə olunan su sahələri (akvatoriyalar) müəyyən etmək;

11.33-22. kökünün kəsilmə təhlükəsi olan balıq və digər su bioresurslarının beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə (sertifikat) vermək;".

**12.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 5.11-ci bəndə "292" rəqəmlərindən sonra "(balıq və su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin;

12.2. 5.15-ci bəndə "340.1-ci" sözlərindən əvvəl "292 (balıq və su bioresurslarına münasibətdə)," sözləri əlavə edilsin;

12.3. 5.23-cü bənddə "Ekologiya və Təbii Sərvətlər" sözləri "Kənd Təsərrüfatı" sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 962 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1058 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 228 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

13.1. 2.1.4-cü yarımbənd və 3.4-cü bənd ləğv edilsin;

13.2. 3.1-ci (hər iki halda), 3.2-ci, 4.1-ci və 4.2-ci bəndlərdə "Ekologiya və Təbii Sərvətlər" sözləri "Kənd Təsərrüfatı" sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"-də aşağıdakı dəyişikliklər edilsin:

14.1. aşağıdakı məzmunda 3.1.3-4-cü və 3.2.3-4-cü yarımbəndlər əlavə edilsin:

"3.1.3-4. "balıqçılıq" altsistemi;";

"3.2.3-4. "balıqçılıq" altsistemi vasitəsilə akvakultura ilə məşğul olmaq üçün hazırlanmış bioloji və texnoloji əsaslandırmanın ilkin və təkrar qeydiyyata alınması, müvafiq qeydiyyat şəhadətnaməsinin verilməsi, akvakultura obyektlərinin və subyektlərinin uçotu, habelə dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması və bərpası barədə müqavilələr bağlanılması, kvota ayrılması, həmin təsərrüfatların yerləşdiyi torpaq sahələrinin və balıqovlama biletinin verilməsi barədə müraciətlərin qeydiyyatı, balıqovlama biletinin verilməsi, balıq və digər su bioresurslarının sənaye ovu ilə məşğul olmaq üçün vətəgə sahələrinin ayrılması barədə müqavilələr bağlanılması, balıq və digər su bioresurslarının ovu ilə məşğul olan balıqçılıq subyektlərinin uçotu;";

14.2. 5.1.31-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.32-ci yarımbənd əlavə edilsin:

"5.1.32. akvakulturanın həyata keçirilməsi üçün müvafiq qeydiyyat şəhadətnaməsinin verilməsi barədə müraciətlər və həmin müraciətlərə baxılma üzrə sənədlər, o cümlədən bioloji və texnoloji əsaslandırma, bioloji və texnoloji əsaslandırmanı təqdim edən akvakultura subyektinin VÖEN məlumatları, adı (fiziki şəxslərə münasibətdə soyadı, adı, atasının adı), ünvanı (hüquqi ünvanı), telefon və elektron poçt ünvanı, akvakultura təsərrüfatının yerləşdiyi torpaq sahəsi, balıqçılıq su obyektinin yeri (yaşayış məntəqəsindən məsafə qeyd olunmaqla), balıqçılıq su obyektinin xəritə sxemi, habelə dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması və bərpası haqqında müqavilələr barədə məlumatlar, balıqovlama biletinin verilməsi və kvota ayrılması barədə müraciətlər və həmin müraciətlərə baxılma üzrə sənədlər, habelə vətəgə sahələrinin ayrılması barədə müqavilələr barədə məlumatlar.";

14.3. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 20-ci abzas əlavə edilsin:

"20. akvakultura ilə məşğul olmaq üçün hazırlanmış bioloji və texnoloji əsaslandırmanı elektron qaydada təqdim etmək, habelə akvakulturanın istiqaməti dəyişdirildikdə, təsərrüfat yenidən qurulduqda və ya genişləndirildikdə bioloji və texnoloji əsaslandırmada müvafiq dəyişiklik etmək, balıqovlama biletinin verilməsi, kvota ayrılması, habelə vətəgə sahələrinin ayrılması barədə müraciət etmək;".

**15.** "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944) aşağıdakı dəyişikliklər edilsin:

15.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə" üzrə:

15.1.1.1.1-ci bənddə "(o cümlədən balıq və digər su bioloji resursları)" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

15.1.2.3.0.36-cı yarımbənd ləğv edilsin;

15.1.3.3.0.64-cü yarımbənddə "(o cümlədən balıq və digər su bioresurslarının)" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

15.1.4.3.0.74 – 3.0.80-ci yarımbəndlər ləğv edilsin;

15.1.5.5.16-cı bənddən ", balıq ovunun tənzimlənməsinə" sözləri çıxarılsın;

15.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə" üzrə:

15.2.1.1.1-ci bənddə "(o cümlədən balıq və digər su bioloji resursları)" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

15.2.2.3.0.25-ci yarımbənd ləğv edilsin;

15.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti haqqında Əsasnamə" üzrə:

15.3.1.2.0.4-cü yarımbənddə ", o cümlədən balıq və digər su bioresurslarının bərpası, artırılması (o cümlədən süni yolla)," sözləri "və" sözü ilə əvəz edilsin;

15.3.2.3.0.4-cü yarımbənddən "(o cümlədən süni yolla)" sözləri çıxarılsın və həmin bənddə "(o cümlədən balıq və digər su bioresurslarının)" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

15.3.3.3.0.14-cü yarımbənddə "(o cümlədən balıq və digər su bioresurslarının)" sözləri "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

15.3.4.3.0.19-cu, 3.0.43 – 3.0.64-cü yarımbəndlər ləğv edilsin;

15.3.5.3.0.66-cı yarımbəndə "fauna" sözündən sonra "(balıq və digər su bioresursları istisna olmaqla)" sözləri əlavə edilsin.

**16.** "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1226 (Cild 1) 5-ci hissəsində "85" rəqəmləri "95" rəqəmləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 7-ci hissəsinin "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı"nın 5.1.3-cü yarımbəndinin 6-cı abzasının "Əsas icraçı orqan (qurum)" sütununda "ETSN" akronimi "KTN" akronimi ilə və "Digər icraçılar" sütununda "KTN" akronimi "ETSN" akronimi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2024-cü il**

# Qafqaz uğrunda döyüş

**(əvvəli 1-ci səhifədə)**



Prezident İlham Əliyev müsahibəsində Gürcüstandakı vəziyyətin hazırkı məcraya düşməsinin daxili səbəblərinə aydınlıq gətirib. Bu səbəblər gözlər önündə Azərbaycanın keçdiyi yolu canlandırır. Axı indi Gürcüstanda aranı qarışdırmaq istəyənlər bir vaxtlar ölkəmizdə də "aktivlik" göstərir, vətəndaş qarşıdurmasın yaratmağa, xalq–hakimiyyət vəhdətini pozmağa çalışırdılar. Məqsədləri özlərinə sərfəli marionet iqtidar formalaşdırmaq idi. Elə bir iqtidar ki, direktivləri və əmrləri sorğu-sualsız yerinə yetirsin, istənilən an avantüra üçün alətə çevrilsin. Bir sözlə, hazırkı Ermənistan kimi bir quruluş yaratmaq eşqinə düşmüşdülər. Amma bacarmadılar və onlar indi Gürcüstanda təşəbbüsə yiyələnməklə, Ermənistanla yanaşı, bu ölkəni də təsir altına alıb saxta demokratiya tandemi formalaşdırmaq iddiasındadırlar. Tandemi Azərbaycana qarşı qoymağı, ondan regional layihələr baxımından ölkəmizə təzyiq vasitəsi kimi bəhrələnməyi düşünürlər. Əlbəttə, məqsədlərinə çatmaları mümkünsüzdür. Prezident İlham Əliyevin fikirləri də buna əminlik yaradır: "Görürəm ki, Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin".

Azərbaycanda da vaxtilə oxşar gərginliyi formalaşdırmaq yönümlü cəhdlərin olduğunu da vurğuladıq. Məsələ üzərində bir qədər geniş dayanmaq üçün Prezident İlham Əliyevin növbəti fikirlərinə nəzər salaq: "Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir".

Belə bir deyim var ki, havayı pendir ancaq tələdə olur. Yəni, xaricdən ayrı-ayrı dövlətlərin ayırdıqları qrantlar eyni mahiyyət daşıyır. Təcrübə göstərir ki, həmin qrantlar bir çox hallarda etirazçı kəsim formalaşdırmağa yönəlib ki, həmin etirazçıların çıxardıqları oyunlar dövlətlərə təzyiq vasitəsi olsun. Bu gün ABŞ Dövlət Departamentinin rəhbəri Birləşmiş Ştatların qrantlarından dağıdıcı məqsədlər naminə faydalanan, törətdiyi qanunsuz əmələ görə həbsdə olan azərbaycanlının mükafatlandırıldığını bildirib, həmin şəxsin yerinə boş stulla şəkil çəkdirərək məsələyə dramatik ton gətirirsə, belə tragikomik üsulla ölkəmizin iqtidarını anti-demokrat qismində dəyərləndirmək yolu tutursa, deməli, hər şey aydındır.

Bəli, böyük ölçüdə aydın olan budur: Azərbaycan iqtidarı ölkəmizdə Qərbin məkrli ssenarilərinin gerçəkləşməsinin qarşısını almaqda qətiyyətlidir. Azərbaycan hakimiyyəti, həmçinin ölkəni xarici qüvvələrdən asılı hala düşməməsinə prinsipial yanaşır. Prezident İlham Əliyevin bildirdiyi kimi: "İkincisi, yardım asılılıq yaratmamalıdır. Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən, nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: Sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil".

*

Gürcüstandakı durum onu deməyə əsas verir ki, bu gün ölkədə keçirilmiş qanuni seçkinin nəticələrini tanımaq istəməyənlərin, seçilmiş hakimiyyəti qəbul etməyənlərin səsi gur çıxır, onlar mərkəzi meydana axışaraq, pozuculuq fəaliyyətini gerçəkləşdirirlər. Qərb isə bu kəsimi demokratiya mücahidləri qismində qiymətləndirir. Müqayisə üçün deyək ki, Ermənistan hakimiyyətinə qarşı çıxan qüvvələr, az qala, üsyançılar olaraq qələmə verilirlər. Çünki Ermənistan hakimiyyəti Qərbpərəstdir. Budurmu ədalət? Əlbəttə, bu ədalət yox, ikili standartlar siyasətinin aşkar təzahürüdür. Yeri gəlmişkən, dünyada ikili standartlar siyasətinin gerçəkləşdirilməsində medianın gücündən istifadə, bir növ, dəb halını alıb. Qərbin ayrı-ayrı kütləvi informasiya vasitələri, eləcə də Gürcüstanın müxalif kəsiminə məxsus media orqanları elə görüntü formalaşdırırlar ki, sanki ölkədəki iqtidar qeyri-legitimdir.

Azərbaycana gəldikdə, özünü düzlük və doğruluq mücəssiməsi kimi qələmə verənlərin, əslində, qanunsuz əməllərə imza atdıqları məhkəmə qərarları ilə sübuta yetirilir. Bu, o adamlardır ki, Ermənistan üzərindəki tarixi qələbəmizə kölgə salmaq üçün saxta beynəlmiləlçilik "zəngulələri" vururdular, Azərbaycanı bütün platformalarda gözdən salmağa cəhd göstərirdilər. Belələri medianı da özlərinin məkrli niyyətləri üçün alətə çevirirdilər.

Gürcüstan kontekstində fikirlərini izah edən dövlətimizin başçısı qonşu ölkədə bu kimi məsələlərə zamanında diqqət yetirilmədiyini vurğulayıb. Hazırkı durum isə nəticədir. "Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün", – deyən Prezident İlham Əliyevin fikirləri Qərbin timsalında Fransanın Gürcüstanda, ümumən Cənubi Qafqazda reallaşdırdığı pozuculuq kursuna, obrazlı desək, sərt şapalaqdır.

*

Sonda dövlətimizin başçısının Gürcüstanda gedən proseslərə münasibət baxımından daha bir fikri üzərində dayanaq. Cənab İlham Əliyev "Ermənistanın haraya getdiyi aydındır" – deyib və bildirib ki, Ermənistan özünün üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından de-fakto çıxıb, rəsmi İrəvan qurumdan ayrılmanın hüquqiləşdirmək üçün ABŞ Dövlət Departamentindən təlimat gözləyir. Deməli, ölkə mövqeyini müəyyənləşdirib və Qərbin Cənubi Qafqaz regionundakı peyki ampluası ilə razıdır. Ölkəmizin liderinin təbirincə yanaşsaq, Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. "Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq", – deyən Prezident İlham Əliyevin yanaşması son dərəcə konseptualdır.

Deməli, Gürcüstan Qafqaz uğrunda döyüşlərdə ona görə mühüm amildir ki, Qərb ölkəni, eyni zamanda, ənənəvi dəyərlərdən uzaqlaşdırmaq niyyətindədir. O dəyərlərdən ki, yüzilliklərdir gürcü xalqının mənəvi dünyasını təşkil edib, onun iliyinə işləyib, gürcü milli kimliyi və koloritini canlandırır. Dəyərlərdən uzaqlaşmaq yolu tutanların aqibəti isə məlumdur. Onlar dahi rus şairi Aleksandr Puşkinin dili ilə desək, kölədirlər, qorxaqdırlar, çünki ermənidirlər. Gürcüstan Ermənistan olmamalıdır və olmayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan Qərblə də, Şərqlə də müstəqil siyasət aparan ölkədir

**(əvvəli 1-ci səhifədə)**



Söhbət əsnasında Rusiya–Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini müsbət qiymətləndirən İlham Əliyev jurnalistin Rusiya və NATO arasında gözlənilən müharibə riski və hadisələrin bu istiqamətdə inkişafı ehtimalında Azərbaycanın tutacağı mövqe, yürüdəcəyi siyasətlə bağlı bir qədər narahatedici sualına kifayət qədər dəqiq və əhatəli cavab verdi: "Regionumuzda və bütövlükdə, dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib. Amma bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib. Mən hesab edirəm ki, Müttəfiqlik Qarşılqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması bizim 30 ildən artıq müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman, əlbəttə, deyərdim ki, belə bir sənəd tarixi hadisədir. Bəyannamənin imzalanmasından ötən illər ərzində Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana çox əlamətdar, həm də tarixi səfəri baş tutdu. O, dəfələrlə bizim ölkəyə gəlib, amma bu səfər xüsusi idi. Bu, dövlət səfəri ilk dəfə bu ilin yayında həyata keçirilib. Həmin səfər çərçivəsində biz nəinki münasibətlərimizin müttəfiqlik xarakterini təsdiqlədik, həm də ikitərəfli qarşılıqlı fəaliyyətin inkişaf yollarını müəyyənləşdirdik. Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur. Artıq dediyim kimi, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq".

Eyni zamanda, Azərbaycan lideri sözlərinə onu da əlavə etdi ki, Azərbaycan özünəməxsus statusunu nəzərə alaraq, gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər. Yəni, həm Qərbdə, həm də Şərqdə ölkəmiz tamamilə müstəqil oyunçu kimi qəbul edilir. Bunun ardınca İlham Əliyevin söylədiyi "Ona görə ki, Azərbaycan həm Rusiyanın müttəfiqi və eyni zamanda, NATO üzvü olan yeganə ölkənin – Türkiyənin müttəfiqidir" fikri adlarını çəkdiyi tərəflərə ismarıc kimi qəbul edilməlidir.

Bu kontekstdə dövlət başçısının Bakının əvvəllər Rusiya və ABŞ hərbi rəhbərliyinin, eləcə də NATO nümayəndələri ilə görüşlərin keçirildiyi məkan olduğunu xatırlatması suala cavabın sanbalı və konkretlilili ilə yadda qaldı: "Qərbdə, Rusiyada və Şərqdə Azərbaycan kimi güvənilən ölkələr çox deyil".

* * *

Bunun ardınca Dmitri Kiselyov təkcə Kremli deyil, eyni zamanda, Rusiya ictimaiyyətini açıq-aydın narahat edən bir sual verdi: Azərbaycanın Türkiyənin hərbi bazasına ehtiyacı varmı? İlham Əliyev suala cavabında qeyd etdi ki, Türkiyə ilə Azərbaycan arasında Müttəfiqlik Bəyannaməsində təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd olduğundan belə bazaya ehtiyac yoxdur: "İki qardaş ölkə xarici təcavüz zamanı bir-birinin köməyinə gəlməyi öhdəsinə götürür, lakin onların birliyi üçüncü ölkələrin təhlükəsizliyini təhdid etmir. Vaxtaşırı müəyyən mediada belə məlumatların yayımlandığını nəzərə alaraq əgər cavabımı azca genişləndirsəm, deməliyəm ki, buna ehtiyac yoxdur. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 1992-ci ilin əvvəlindən Türkiyə ilə hərbi əməkdaşlıq edir. Bu hərbi əməkdaşlıq o vaxt başlayıb və bu günə qədər davam edir. Təbii ki, zərurətdən asılı olaraq formalar dəyişir, amma deməliyəm ki, bu 30 ildən artıq müddətdə Türkiyə və onun hərbi strukturları Azərbaycan Ordusunun müasirləşdirilməsində və onun həm döyüş qabiliyyətinə, həm də əməliyyatların planlaşdırılmasına, vəziyyətin təhlilinə, hərbi kəşfiyyatın potensialına uyğun olaraq yüksək standartlara çatdırılmasında böyük rol oynayıblar. Yəni, belə yardıma görə türk dostlarımıza çox minnətdarıq".

Suala cavabın ardı olaraq dövlət başçımız Qafqazda sabitliyin mühüm amil olduğunu xüsusi olaraq vurğuladı: "Bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib və İkinci dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər. Siyasi istəklərdə yenidən güc amili ön plana çıxır. Bunu daha tez dərk edən ölkələr bu gün özlərini daha təhlükəsiz hiss edə bilərlər. Halbuki, müasir dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz".

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** sözünə belə başladı:



"Diplomatiyada belə bir ifadə var: Dövlətin xarici siyasəti onun coğrafiyası ilə toqquşmamalıdır. Yəni, xarici siyasət xətti formalaşdırılanda geosiyasi reallıqlar mütləq nəzərə alınmalıdır. Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun kəsişdiyi nöqtədədir. Məhz bu kontekstdən yanaşanda Bakı elə bir xarici siyasət qurmalı idi ki, bu siyasət yanlışlığa deyil, əksinə, Azərbaycanın mövqeyinin möhkəmlənməsinə və imkanlarının genişlənməsinə xidmət etsin. Prezident İlham Əliyev cavabında bu amili dilə gətirdi. Bəli, Azərbaycan qardaş Türkiyənin strateji müttəfiqidir, eyni zamanda Rusiya ilə də müttəfiqlik münasibətlərinə malikdir. Burada heç bir ziddiyyət yoxdur. Dmitri Kiselyovun Azərbaycanda Türkiyənin hərbi bazası ilə bağlı sualına cavabında cənab Prezident buna ehtiyacın olmadığını bildirdi. Biz qardaş Türkiyə ilə ildə 10-a yaxın birgə hərbi təlimlər keçiririk. Ordularımız bir-birinə, demək olar ki, tam uyğunlaşdırılıb. Amma ərazimizdə Türkiyənin hərbi kontingetntinin olmasına ehtiyac yoxdur".

R.Musabəyov rusiyalı jurnalistin NATO ilə Rusiyanın toqquşacağı təqdirdə Azərbaycanın hansı tərəfdə olacağı barədə sualına dövlət başçımızın verdiyi cavabla bağlı bunları bildirdi: "O zaman Azərbaycan barış məkanı olacaq. Bu, olduqca vacib amildir. Onu da nəzərə almaq lazımdır ki, biz NATO ölkəsi olan Türkiyə ilə strateji müttəfiqik. Fəqət rəsmi Bakı özünün xarici siyasətini müəyyənləşdirəndə bəyan etdi ki, Azərbaycan ərazisindən qonşu ölkələrə heç bir təhlükə yaranmayacaq. Bu isə o deməkdir ki, bizim ərazidən Rusiya, İran və Gürcüstana hansısa hücumun həyata keçirilməsinə yol verilməyəcək. Təkrar edirəm, biz həm Türkiyə, həm də Rusiya ilə müttəfiqik. Amma Azərbaycan Qoşulmama Hərəkatının liderlərindən biridir. Bu amili də unutmaq olmaz. Belə balanslaşdırılmış siyasi xətti kənar təzyiqlərdən qorumaq və onu ardıcıl həyata keçirməkdən ötrü yüsək diplomatik ustalıq, olduqca dəqiq qərarlar qəbul etmək bacarığı lazımdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bu vaxta kimi bunu bacarıb və düşünürəm ki, bundan sonra da bacaracaq. Məhz bu cür uğurlu siyasətin sayəsində Azərbaycan 44 günlük müharibədə hansısa xarici ölkənin Ermənistan tərəfdən müdaxiləsini neytrallaşdırdı. BMT Təhlükəsizlik Şurasında Fransanın ölkəmizə qarşı qətnamə qəbulu üçün 5 cəhdinin hamısının boşa çıxması Bakının düzgün hərbi və xarici siyasətinin bəhrəsi idi".

* * *

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşdü: "Azərbaycan yaxın və uzaq ölkələrlə normal və ikitərəfli tərəfdaşlıq münasibətləri qurmaqda maraqlıdır.



Bu zaman əsas prinsip bir-birinin daxili işlərinə qarışmamaqdır. Əlbəttə, ilk növbədə, qonşu dövlətlərlə əməkdaşlıq prioritet sayılır. Bu sırada qardaş Türkiyənin özəl yeri var. Türkiyə Azərbaycanın strateji müttəfiqidir, Rusiya ilə də tətəfdaşlıq münasibətlərimiz mövcuddur. Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə ilə il ərzində on hərbi təlimin keçirilmsi faktı strateji müttəfiqliyin hansı səviyyədə olmasından xəbər verir. Eyni zamanda Rusiya ilə tərəfdaşlıq münasibətlərimiz uğurla davam edir. Doğrudur, Ukrayna müharibəsinə görə Rusiya ilə Qərb arasında münasibətlər gərgindir. Dövlərt başçımız təklif etdi ki, Azərbaycan yaxın keçmişdə olduğu kimi, yenə də Qərb və Rusiya arasında dialoq platforması rolunu oynaya bilər. Bakı NATO və Rusiyanın hərbi rəhbərliyi, ABŞ və Rusiyanın generallarının görüşdüyü yer olub. Onlar danışıqları niyə məhz Bakıda aparıblar? Cənab Prezidentin açıqladığı kimi, Azərbaycan qarşıdurmalardan qaçır, tərəfdaşlıq təşəbbüsləri ilə çıxış edir. Yəni, ölkəmiz Rusiya ilə Qərb arasında qarşıdurmanın deyil, dialoqun tərəfdarıdır. Bunun üçün əlində olan bütün imkanlardan istifadə etməyə hazırdır".

E.Şahinoğlu dövlət başçısının müsahibəsində, həmçinin ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp haqqında müsbət fikirlər söylədiyini və onun xarici siyasət kursuna ciddi korrektələr edəcəyinə ümid etdiyini bildirdi: "Bəli, Bakı Vaşinqtonla sıx əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Bir şərtlə ki, daxili işlərə qarışılmasın. Fransaya gəldikdə isə Makron iqtidarı iki ölkə arasında normal inkişaf edən münasibətləri darmadağın etdi. Ona qədər tərəfdaşlıq münasibətlərimiz yüksək səviyyədə idi. Məhrum Prezidentimiz Heydər Əliyev və sonra İlham Əliyev ilk xarici səfərlərini məhz Fransaya etmişlər. Makronun ermənipərəst siyasəti bu münasibətlərin üstündən qara xətt çəkdi".

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində Azərbaycanın bölgədə və dünyada nümayiş etdirdiyi özünəməxsus iradəsini, sülhə və əməkldaşlığa yönəlik təşəbbüslərini və xarici siyasətdə yaxın perspektiv üçün müəyyənləşdirdiyi prioritetləri dəqiq və konkret bəyan etdi. Onun bu gün bütün dünyanı narahat edən qlobal qarşıdurma ilə bağlı dedikləri isə düşündürücü və ibrətamiz idi: "Aydındır ki, müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta, deyək ki, NATO regiondan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək. Mən düşünürəm ki, həm Vaşinqtonda, həm də Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin".

Cənab Prezidentin bu tezisini həm də yazımızın məntiqi nöqtəsi saya bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Sülh müqaviləsi üçün iki mühüm şərt

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev bildirib: “Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir”.

Bəli, ATƏT-in Minsk qrupu rəsmən ləğv olunmalıdır. Bunun hansısa alternativi olmamalıdır. Bir halda ki, Ermənistan rəsmiləri, o cümlədən, baş nazir Nikol Paşinyan bütün beynəlxalq platformalarda Azərbaycanın Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edir, deməli, bu məsələ ilə bağlı bütün təsisatların ləğvi mütləqdir. Bunun baş verməməsi, istər-istəməz, sülhü şübhə altına alır. Dövlətimizin başçısının da vurğuladığı kimi, Ermənistan Azərbaycanın şərtini qəbul etmək istəmirsə, deməli, ölkədəki revanşistlərin avantürist planları var. Həmin avantüristlər isə erməni iqtidarının tərkibində də yer alırlar. Onları başqa haradasa axtarmağa ehtiyac yoxdur. Paşinyan administrasiyası səmimidirsə, bütün şübhəli məqamlara aydınlıq gətiməli, eyni zamanda, şübhələri özündən uzaqlaşdırmalıdır. Nəzərə almalıdır ki, otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti yürüdən və bu səbəbdən reputasiyası pozulmuş ölkə Ermənistandır.

Bəli, Rəsmi İrəvan etimad quruculuğu tədbirlərini gücləndirməlidir, bu, öz yerində. Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun ləğvi tələbinə digər aspektdən də yanaşır və belə bir suala cavab axtarırıq: 44 günlük müharibə nə üçün baş verdi? Sual ritorikdir, çünki cavab bəllidir. O zaman başqa sualın üzərində dayanaq: Savaş olmaya bilərdimi? Təbii ki, Ermənistan danışıqlarda konstriktiv mövqe tutsaydı, destruktiv davranmasaydı, baş nazir Nikol Paşinyan “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirməsəydi, qanlı qarşıdurma da yaşanmayacaqdı. Ancaq olanlar oldu. Azərbaycan şəhid verdi, zəfər qazandı, öncə ərazi bütövlüyünə, 2023-cü ilin sentyabrında isə suverenliyinə qovuşdu. Ancaq bu gün rəsmi İrəvan



44 günlük müharibənin Ermənistan üçün məğlubiyyət şərtini qəbul etmir. Yəni, Paşinyan bildirir ki, savaşa son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat ölkəsinə məğlub dövlət olaraq yanaşmağa əsas vermir.

Ermənistan məğlubiyyətini qəbul etmirsə, deməli, yeni müharibə axtarışındadır və hazırda rəsmi İrəvanın tutduğu kurs fikrimizin sübutudur. O zaman Azərbaycan nə etməlidir? Əlbəttə, acınacaqlı məğlubiyyətlə üzləşdiyini anlamayan psixopatlar yığınına məsələnin mahiyyətini təfsilatı ilə anlatmalıdır. Elə məhz buna görə Ermənistan rəhbərliyi ATƏT-in Minsk qrupunun rəsmi şəkildə ləğvi üçün müraciət etməlidir.

Anlayırıq ki, haqqında söz açdığımız müraciət Ermənistanda növbəti rüsvayçılıq kimi qiymətləndiriləcək. Amma hər şeyin bir cəzası olmalıdır. Vaxtilə Hitler Almaniyası məğlub olanda da onun üzərinə ağır şərtlər qoyuldu. Hələ biz erməni işğalı nəticəsində Azərbaycana dəymiş 150 milyard dollarlıq ziyanı demirik. Hərçənd, Prezident İlham Əliyev müsahibəsində bu məqama da toxundu, daha doğrusu, onu ustalıqla eşitdirdi.

Əlqərəz, bir halda ki, üçtərəfli bəyanat məğlubiyyət deyil, o zaman ATƏT-in Minsk qrupunun ləğvi məğlubiyyət prezumpsiyasını təsdiqləməlidir. Ermənistan buna getməyə, sadəcə, məhkumdur. Ona görə ki, sözügedən təsisatın ləğvi də Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının yoxluğunu təsdiqləyən məqamdır. Yenə də bildirək ki, rəsmi İrəvanın nümayəndələri mövqelərində səmimi olmalıdırlar. Əgər olmaq istəmirlərsə, ATƏT-in Minsk qrupu formatı çərçivəsindəki müzakirələr gündəliyi ilə bağlı xam xəyallara dalırlar. Xəyallar isə bir qayda olaraq, illüziya yaradır. Söhbət avantürist illüziyadan gedir.

Prezident İlham Əliyevin Ermənistan üçün müəyyənləşdirdiyi ikinci sülh şərtinə diqqət yetirək. Söhbət rəsmi İrəvana qarşı qoyulan konstitusiya dəyişikliyi tələbindən gedir. Dövlətimizin başçısı müsahibəsində bildirib: “Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı Müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir”.

Məlum olduğu kimi, Ermənistan konstitusiya məhkəməsi bir neçə ay əvvəl ölkənin istiqlaliyyət bəyannaməsinin ana qanunda yer almayan müddəalarının etibarsız sayılmasına dair qərar çıxardı. Rəsmi İrəvan bunu Bakının tələbinin yerinə yetirilməsi kimi qiymətləndirir. Məsələ barədə N.Paşinyan bir neçə dəfə söz açıb və bildirib ki, belə bir qərardan sonra konstitusiya dəyişikliyinə ehtiyac yoxdur. Halbuki, onun yanaşması yanlışdır. Əvvəla, Ermənistan konstitusiyası istiqlaliyyət bəyannaməsinə istinad yüklüdür. Yəni, bir məhkəmə qərarı bunun əksini iddia etmək ümün əsas götürülə bilməz, çünki istənilən an həmin qərar, belə demək mümkünsə, asan mübahisələndirilə bilər. Durumu erməni iqtidarı da çox gözəl bilir.

Azərbaycan problemə köklü yanaşır. Bu yanaşma ona görədir ki, ölkəmiz Ermənistanın gələcəkdə Azərbaycana qarşı heç bir iddiaya düşməyəcəyi ilə bağlı maksimal təminat axtarışındadır. Belə təminat isə konstitusiya dəyişikliyindən keçir. O dəyişiklikdən ki, erməni xalqının iradəsi ilə referendum yolu ilə gerçəkləşməlidir. Yəni, Ermənistan dövləti və xalqı Azərbaycana qarşı heç bir ərazi iddiasının olmadığını ən yüksək səslə bəyan etməlidir. Amma bunu etmir və ölkədəki revanşist qüvvələrin aktiv olduğunu görürük. Ən pisi isə ondadır ki, rəsmi İrəvan mahiyyət etibarilə həm revanşistlərin təsiri altına düşür, həm də ərazi iddiası məsələsi erməni amilinin regionda saxlanılmasında maraqlı olan xarici qüvvələr üçün vaciblik indiqatoru ampluasındadır.

“Prinsipcə bunlar (konstitusiya dəyişiklikyi və ATƏT-in Minsk qrupunun ləğvi – red.) hamısıdır, əgər bunlar həll edilsə, daha sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq”, – deyir Prezident İlham Əliyev. Yaxşı olar ki, Ermənistan hakimiyyəti dövlətimizin başçısının göstərdiyi tələbləri yerinə yetirmək barədə düşünsün. Təəssüf ki, hələlik, bu düşüncəni görmürük. Əksinə, İrəvanda bir yandan sürətli silahlanma xəttinə üstünlük verilir, digər yandan isə referendumu konstitusiya dəyişikliyi aparmaq üçün yox, Avropa İttifaqına qoşulmaq kimi mənasız məsələ ilə bağlı keçirməkdən dəm vurulur. Bütün bunlar onu göstərir ki, Ermənistan Azərbaycanla sülhə gəlməkdən uzaqdır. Belə olduqda və destruktiv mövqe tutmağa davam etdikdə ölkəni nələr gözləyir? Prezident İlham Əliyev bu barədə də kifayət qədər aydın mesajlar verdi, son dərəcə qətiyyətli fikirlər Səsləndirdi. Nəticə çıxarmaq növbəsi Ermənistanındır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni lobbisi ölkəmizə qarşı total hücuma keçib

(əvvəli 1-ci səhifədə)

Uzun illər ərzində bu lobbinin əsas fəaliyyət istiqaməti ABŞ-dəki erməni icmasının, Ermənistanın və keçmiş qondarma “dqr”in maraqlarını qorumaq olmuşdur. Tarixin bütün mərhələlərində həm əhalinin sayı etibarilə, həm də iqtisadi və hərbi potensial baxımından Azərbaycandan qat-qat zəif olan Ermənistanın torpaqlarımızı işğal etməsi də məhz xaricdəki havadarlarının onlara göstərdiyi böyük maddi, hərbi və canlı qüvvə dəstəyi nəticəsində mümkün olmuşdur.

Uzağa getmək lazım deyil. Təkcə ABŞ Konqresi tərəfindən 1992-ci ildə Azadlığa dəstək Aktına edilən 907-ci düzəlişi yada salmaq kifayətdir. Məlumdur ki, Nümayəndələr Palatası və Senatdakı erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş bu düzəliş Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan etmişdir. Nəticədə bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet ölkəsinə çevirmişdir. Düzəliş Azərbaycan tərəfindən “Dağlıq Qarabağın işğalı” və Ermənistanın blokadasının (?) qarşısını almaq məqsədilə qəbul olunmuşdur. Halbuki, həmin vaxt Azərbaycan özü işğala məruz qalmışdı. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası isə Ermənistan tərəfindən blokadaya alınmışdı. Yardım almaq qadağası Ermənistana tətbiq edilməli olduğu halda Azərbaycan hədəfə alınmışdı. Nəticədə ölkəmiz haqlı ikən haqsız duruma düşmüşdü. “907-ci düzəliş” xarici havadarlarının Ermənistanın işini asanlaşdırmaq, Azərbaycanı isə məngənəyə salmaq istiqamətində göstərdikləri fəaliyyətə bariz nümunədir.

İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi zamanı xaricdəki ermənilərin Azərbaycana qarşı döyüşlərdə iştirak etmələrinə dair çoxlu fakt mövcuddur. Yaxın Şərqin Livan, Suriya, İraq kimi ölkələri ilə yanaşı, ABŞ-dən olanlar da hərbi əməliyyatlara qatılıblar. Bu sırada dünya miqyaslı terrorçu Monte Melkonyanın adını çəkmək yerinə düşər. Melkonyan 1957-ci ildə Kaliforniya ştatının mərkəzi hissəsində yerləşən Viseyliya şəhərində dünyaya gəlmişdir. Məşhur Berkli Universitetini arxeologiya ixtisası üzrə bitirmişdir. 1978-ci ildən Livanda gedən vətəndaş müharibəsində, sağ xristian qüvvələrinin tərəfində döyüşmüşdür. Bundan sonra Türkiyə ordusuna qarşı PKK-nın həyata keçirdiyi əməliyyatlarda iştirak etmişdir. Melkonyan 1981-ci il sentyabrın 24-də Parisdəki Türkiyə səfirliyinə hücum təşkil etmişdir. Həmin ilin noyabrında Fransa polisi onu həbs etmiş, həbsi zamanı üstündən saxta sənədlər aşkar olunmuşdur. Melkonyanın həbsinə cavab olaraq ASALA bir neçə terror hadisəsi törətmiş və sonda Fransa hökuməti Melkonyanı Livana deportasiya etmişdir, lakin bir müddət sonra o saxta sənədlərlə yenə də Fransaya qayıtmışdır. “Avo” ləqəbli Melkonyan 1983-cü ildə Parisdəki Orli hava limanında, “Türk Hava Yolları” şirkətinin kassaları qarşısında partlayış təşkil etmişdir. Nəticədə 8 nəfər həlak olmuş, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. O, 1990-cı ildə Ermənistana getmiş və oradan qanunsuz şəkildə Qarabağ ərazisinə keçmişdir. Xocavənd rayonunun işğalı zamanı Ermənistan ön cəbhə dəstələrinin birinin komandiri olan Monte Xocalı soyqırımı zamanı əsir düşmüş azərbaycanlılara işgəncə verilməsində də aktiv iştirak etmişdir. Məlum olduğu kimi, məşhur terrorçu 1993-cü il iyunun 12-də Ağdam rayonunun Mərzili kəndi yaxınlığında məhv edilmişdir. Melkonyan nümunəsi Amerika ermənilərinin Azərbaycana qarşı təkcə qanunvericlik, hüquqi və siyasi müstəvidə mübarizə aparmaqla kifayətlənmədiklərinin, ələ silah alaraq bilavasitə döyüşlərdə iştirak etdiklərinin göstəricisidir.



Azərbaycan Ordusunun 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın çox böyük hissəsinin işğaldan azad edilməsi bütün dünya ermənilərinə, o cümlədən, okeanın o tayındakı haylara və onların lobbisinə çox ağır zərbə oldu. Onlar bu zərbənin təsirindən özlərinə gəlməyə macal tapmamış 3 il sonra daha bir ağır zərbə aldılar. Cəmi bir sutka davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində bütün ölkə ərazisində suverenliyimiz bərpa olundu. Bu iki hadisə onlar üçün, necə deyərlər, soyuq duş effekti yaratdı. Çünki bədxahlarımız bunu gözləmirdilər. Onlar elə hesab edirdilər ki, Azərbaycan güclü ordu qurmasına rəğmən böyük dövlətlərin sanksiyaları ilə üzləşə biləcəyindən çəkinərək müharibəyə başlamağa cəsarət etməyəcək. Yaxud, məsələn, 2016-cı ilin Aprel döyüşləri zamanı olduğu kimi, hərbi əməliyyatları bir neçə gündən sonra dayandırmaq mümkün olacaq. Sonra isə Ermənistanı və onun havadarlarını qane edən əvvəlki status-kvo bərpa olunacaq. Müharibənin ilk günlərindən başlayaraq Bakıya edilən ardıcıl çağırışları xatırlamaq kifayətdir. Ancaq bütün bunların heç bir faydası olmadı və ordumuzun müzəffər yürüşü Zəfərlə tamamlandı.

İndi isə əlləri hər yerdən üzüldüyü üçün onlar Azərbaycan üçün yeni-yeni problemlər yaratmağa çalışırlar. Əslində, bu proses elə müharibənin getdiyi günlərdə başlamışdır. Çalışırlar ki, ölkəmizə qarşı hansısa sanksiyalar tətbiq etsinlər, Azərbaycanı “işğalçı dövlət”, “etnik təmizləmə” həyata keçirən ölkə kimi qələmə versinlər, gözdən, nüfuzdan salsınlar. Qarabağı öz xoşları ilə tərk edən ermənilərin onlar üçün sərfəli şərtlərlə qayıdışına nail olsunlar, keçmiş separatçı xunta rejiminə hərbi-siyasi rəhbərlik etmiş cinayətkarları ədalət mühakiməsindən yayındırsınlar və sair.

Bu istiqamətdə növbəti addım amerikalı erməniпərəst senatorlar Hari Peters və Bill Kessidinin Senata qeyd etdiyimiz iddiaları özündə əks etdirən qətnamə layihəsi təqdim etmələridir. Peters Demokratlar, Kessidi isə Respublikaçılar Partiyasını təmsil etdikləri üçün onların təqdim etdikləri “sənəd” ikipartiyalı hərtərəfli qətnamə layihəsi adlanır. Onlar digər məsələlərlə yanaşı Bakıya hərbi yardımın dayandırılmasını da tələb ediblər. Bu yardımın məbləğinin çox cüzi olduğu isə hamıya bəllidir.

Qətnamə layihəsinin həmmüəllifi B.Kessidi deyib ki, Azərbaycan Avropanı enerji məsələsinə görə girovluqda (?) saxlayır, lakin ABŞ-nin Luiziana ştatı Avropanın ehtiyaclarını ödəmək üçün kifayət qədər enerji resurslarına malikdir. Mətndə, həmçinin “beynəlxalq hüquq ekspertləri” kimi təqdim edilən iki argentinalı təqaüdçünün – Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponun və BMT Baş katibinin soyqırımlarının qarşısının alınması üzrə keçmiş xüsusi müşaviri Xuan Mendesin fikirlərinə istinad olunub. Qeyd edilib ki, “Dağlıq Qarabağın azərbaycanlılar tərəfindən blokadaya alınması” BMT-nin “Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya”sının tələblərinin pozuntusudur.

Göründüyü kimi, ermənilərin verdikləri böyük pullar hesabına onlara lobbiçilik edən iki erməniпərəst senator daha iki erməniпərəstin fikirlərinə istinad edərək Qarabağda hansısa “soyqırımı”nın baş verdiyini iddia edirlər. Bu isə Okampo kimilərin yalan fikirlərinin elə gələcəkdə haypərəst senatorların hərəkətə keçmələrinə zəmin yaratmaq üçün dövriyyəyə buraxıldığını deməyə əsas verir. Diqqəti cəlb edən məqam həm də bu informasiyanın erməni inqilabi federasiyası – “Daşnaksütyun”un “Hay data” bürosunun mərkəzi ofisi tərəfindən yayılmasındadır. Bir daha təsdiq olur ki, Azərbaycan əleyhinə olan qüvvələr sinxron fəaliyyət göstərirlər.

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq İlyas Hüseynov** bildirdi ki, ABŞ Senatında Azərbaycanla bağlı növbəti dəfə qərəzli qətnamə layihəsinin irəli sürülməsi səlahiyyət müddəti başa çatmaq üzrə olan erməniпərəst senatorların gethagetdə hayların maraqlarını təmin etməyə can atdıqlarını deməyə əsas verir. Onlar ermənilərdən aldıqları sifarişləri həvəslə icra edirlər: “Ümid edirəm ki, respublikaçıların 2025-ci il yanvarın 20-dən başlayacaq hakimiyyəti dövründə bu siyasət müşahidə olunmayacaq. Ehtimal edirəm ki, bütün bunlar ABŞ Dövlət Departamenti tərəfindən sifariş edilmişdir. Onların bu məsələdə Konqreslə yaxın əməkdaşlığı da mümkündür”.



Politoloq qeyd etdi ki, bədnam qətnamə layihəsində Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okamponun və BMT Baş katibinin soyqırımlarının qarşısının alınması üzrə keçmiş xüsusi müşaviri Xuan Mendesin fikirlərinə istinad edilməsi çox ciddi mexanizm üzərində iş getdiyindən xəbər verir: “Yəni, Okampo, NATO-nun sabiq baş katibi Anders foq Rasmussen kimi şəxslər erməni lobbisindən aldıqları maliyyə vəsaiti hesabına saxta hesabatlar hazırlayırlar. Ayrı-ayrı media qurumları, yaxud korrupsiyaya bulaşmış şəxslər onların bu saxta hesabatına istinad edir, “mötəbər” mənbə sayırlar. Daha sonra bu məlumatlar geniş auditoriyanın diqqətinə çatdırılır.

Bu, kifayət qədər dəqiq işlənilmiş təxribat sxemidir. Beynəlxalq ictimaiyyətə çatdırılan məlumatların daha geniş təqdimatında çox ağır terminologiyadan da istifadə edilir və ölkəmiz hədəfə alınır. Eyni zamanda, enerji resurslarına da diqqət çəkilir. Guya, Azərbaycan özünün enerji resurslarının Qərbə nəqlini əlində önəmli vasitə, arqument kimi istifadə edir və bununla biz öz məqsədlərimizə çatmaqda ittiham olunuruq. Bu da olduqca saxta narrativ, mühüm dezinformasiyanın tərkib hissəsi, ölkəmiz əleyhinə aparılan böhtan və iftira kampaniyasının bir elementidir”.

***Səxavət HƏMİD***
***XQ***

# Əli Əsədov Misirdə ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib





**Misir Ərəb Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 19-da Qalyubiyyə vilayətinin əl-Qanatır əl-Xeyriyyə şəhərində yerləşən Misir–Azərbaycan Dostluq Parkında olub.**

Nazirlər Kabinetindən bildirilib ki, Ə.Əsədov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoydu.

Baş nazir Əli Əsədov, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri Elxan Poluxov ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər.

*XQ*

# Milli Məclis AP-nin qərəzli qətnaməsini rədd edib

**Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli plenar iclası ölkəmizə qarşı növbəti qətnamə qəbul edib. Qətnamədə adəti üzrə saxta məlumatlara və rəqəmlərə istinad edilir, reallıqlar təhrif olunur, qanunların pozulmasına gətirib çıxarmış cinayət əməllərinin təhqiqatına siyasi don geyindirilməyə cəhd göstərilir. Milli Məclisin Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli qətnaməsinə bu münasibətin davamında bildirilir:**

"Azərbaycanda bütün əsas hüquq və azadlıqların tam şəkildə təmin olunduğu, o cümlədən qanunvericiliyin tələblərinə riayət edilməsinin zərurət olduğu bir gerçəklikdir. Belə olan halda, Avropa Parlamentinin ölkəmizin daxili işlərinə müdaxilə edən bu sənədi başqa məqsədləri ön plana çıxarır.

Bu qətnamənin Azərbaycana qarşı xeyli müddətdir davam edən iftira və böhtan kampaniyasının tərkib hissəsi olduğu şübhə doğurmur. Bu mənada, azərbaycanofob, türkofob və islamofob qüvvələrin cəmləşdiyi Avropa Parlamenti də bu kampaniyaya mütləq öz "töhfə"sini verməli idi. Qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur.

Müşahidələr onu göstərir ki, Fransa, Ermənistan və erməni lobbisinin sifarişlərinin dərhal icrası bu gün Avropa Parlamentinin siyasi simasının xarakterik cizgisidir. Avropa Parlamentində aparılan müzakirələr və qəbul olunan sənədlər digər ölkələrin daxili işlərinə kobud müdaxilə alətinə çevrilib. Lakin bu qurum özünün qeyri-obyektiv mövqeyinin və saxta məlumatları rəsmiləşdirən qətnamələrinin artıq heç bir maraq doğurmadığını yaxşıca dərk etməlidir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin qeyri-obyektiv və qərəzli qətnaməsini qəti şəkildə rədd edir. Hesab edirik ki, ciddi problemlərlə üzləşmiş Avropa qitəsinin bu gün öz qanunvericilərinin həmin problemlərin həllinə diqqət yönəltməsinə daha çox ehtiyacı var".

*XQ*

# "COP29-a qarşı hücumlar barədə hesabat



**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası "COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!" adlı hesabat hazırlayıb.**

Sənəddə bildirilib ki, 2023-cü il dekabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Azərbaycanda keçirilməsi qərarı verildiyi gündən ölkəmizə qarşı informasiya əməliyyatları kəskin hal aldı. Kampaniyanın getdikcə əlaqələndirilmiş formada aparılaraq kütləviləşməsi səbəbindən parlamentin Sədri Sahibə Qafarovanın tapşırığı ilə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası öz səlahiyyətləri çərçivəsində araşdırmalara başladı.

Araşdırmaların nəticəsi olaraq, oktyabrın 21-də "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda Milli Məclisin deputatlarının, vətəndaş cəmiyyəti nümayəndələrinin, beyin mərkəzləri təmsilçilərinin, hibrid təhdidlər və kibertəhlükəsizlik üzrə ekspertlərin iştirakı ilə ictimai müzakirə keçirildi və məsələ ətrafında geniş fikir mübadiləsi aparıldı.

Qısa müddət sonra isə həmin müzakirənin yekunları və açıq mənbələrdən əldə edilən məlumatların təhlili əsasında 2024-cü ilin noyabrında Azərbaycan və ingilis dillərində "COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!" adlı xüsusi hesabat hazırlandı.

Burada Azərbaycana qarşı istifadə olunan hibrid təhdidlərin dezinformasiya, habelə hüquq və müharibə terminlərinin kombinasiyasından yaranmış "Lawfare" növləri barədə söz açılır, onların haradan və kimlər vasitəsilə təşkil olunduğu sübuta yetirilir. Həmçinin bəzi ölkələrin bu hibrid hücumları təşkil edərkən beynəlxalq hüququn norma və prinsiplərindən yayınmaq məqsədilə istifadə etdikləri mexanizmlər göstərilir.

Hesabatda hibrid hücum alətləri kimi istifadə olunan parlamentlər və müəyyən dövlətlərin maliyyə və siyasi dəstəyi əsasında konkret sifarişlər yerinə yetirən bir sıra beynəlxalq insan hüquqları təşkilatları barədə də söz açılır, ölkəmizə qarşı ənənəvi düşmənçilik edən və anti-COP29 kampaniyasında fəal iştirak edən erməni lobbi təşkilatlarının, zəngin diaspor ermənilərinin və Ermənistan Respublikası rəsmilərinin fəaliyyətlərinə də geniş yer ayrılır.

Yekunda son aylarda COP29-a qarşı istifadə olunan sosial media kampaniyaları, həştəqlər təhlil edilir və ümumilikdə dünya mediasının tədbirə marağı ilə bağlı statistik rəqəmlər təqdim olunur.

Beynəlxalq ictimaiyyətin məlumatlandırılması baxımından, qeyd olunan xüsusi hesabatın dost və tərəfdaş ölkələrin parlamentlərinə göndərilməsi nəzərdə tutulur.

*XQ*

# Azərbaycan TDT-nin media toplantısında

**Dekabrın 19-da Azərbaycanın nümayəndə heyəti Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 6-cı toplantısında iştirak edib.**

Məclisdə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan Respublikası ilə Türk Dövlətləri Təşkilatına üzv olan digər ölkələr arasında media sahəsində ikitərəfli əməkdaşlığın inkişafına, birgə layihələrin həyata keçirilməsinə və təcrübə mübadiləsinin təşviqinə xüsusi diqqət göstərildiyini bildirib. O, sürətli texnoloji inkişafın yaratdığı yeni reallıqlar fonunda Türk dövlətləri arasında media sahəsində əlaqələrin gücləndirilməsinin müstəsna əhəmiyyət daşıdığını vurğulayıb.

Toplantının sonunda Kommünike qəbul olunub.



Səfər çərçivəsində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ilə Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin baş direktoru Asadjan Xocayev arasında ikitərəfli görüş keçirilib.

*XQ*

# Fransa səfirinin uğursuz tvitləri

**Qərbi Azərbaycan İcmasının Fransanın Azərbaycandakı səfirinin son açıqlamaları ilə bağlı bəyanatında deyilir ki, bəzi Qərb ölkələrinin daim əllərində bayraq etdikləri "söz azadlığı", "fikir müxtəlifliyi"nə nə qədər dözülməz münasibət bəsləmələrinin bir daha şahidi oluruq.**

QAİ bildirir ki, Fransanın ölkəmizdəki səfiri tez-tez Azərbaycana qarşı "dahiyanə" tvitlər yazan Ermənistandakı həmkarından geri qalmamaq niyyətinə düşmüş, lakin onun da tviti çox uğursuz alınmışdır: "Üstəlik, səfirin açıqlaması ksenofob mahiyyət daşıyır və bu mənada, Cozef Borelin "Avropa bağdır, qalan dünya isə cəngəllik" məzmunlu irqçi tezisinin davamıdır. Bütün bunlar Fransa diplomatiyasının iflasının, düşdüyü acınacaqlı vəziyyətin daha bir bariz nümunəsidir".

*XQ*

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19 dekabr tarixli saylarında)***

## İki Aleksandr

Fransa prezidentinin təyyarəsi Əlcəzairin hava limanında yerə enir. Aerobus sürətini azaldır, aerodromla yavaş-yavaş irəliləyib, nəhayət, dayanır. Aşağıda Əlcəzairin məmurları, o cümlədən Baş nazir Əhməd Uyahya qırmızı xalçanın qarşısında dayanıb Emmanuel Makronu qarşılamağa hazırlaşırlar. Amma dəqiqələr keçir, təyyarədən heç kim çıxmır. Fransa prezidenti tələsmir. Əlcəzairin rəsmi nümayəndələrinin sifətində səbirsizlik və narahatlıq oxunur. Çünki Makronun 2017-ci il 6 dekabr tarixində Əlcəzairə etdiyi rəsmi səfər cəmi-cümləteni 24 saat davam edəcək. Bu möhtərəm qonağın vaxtı çox məhduddur. Nəhayət, xeyli keçəndən sonra Fransanın prezidenti, onun ardınca Fransız nümayəndəliyinin üzvləri təyyarədən çıxıb, körpü-pilləkənlərlə yavaş-yavaş aşağı enirlər. Bu gəlişin ab-havası əvvəlki Fransa prezidentlərinin bura səfərindən tamamilə fərqlənəcək. Əlcəzairin hökumət nümayəndələri ilə görüşdən sonra Makron saat 14:00-da Fransa səfirliyində iki ölkənin 20-yə yaxın yazıçısı, ziyalısı, iş adamları və kommersiya liderləri, eləcə də QHT rəhbərləri ilə nahar edir. Masanın ətrafında Bualem Sansal və Kamel Daud kimi adlı-sanlı yazıçılar, eləcə də milyarder Ksaviye Niel kimi şəxsiyyət var. Fransanın Xarici İşlər naziri Jan-Yv Lö Drian, Daxili İşlər naziri Jerard Kollomb və İctimai hesablar komitəsinin sədri Jerald Darmanan da prezidenti müşayiət edirlər...




Səfirliyin divarları arasında gözəl atmosfer və yaxşı əhval ruhiyyə var. Prezident hamı ilə həvəslə söhbət edir və qonaqlarla selfi çəkdirir. Nahar məclisi o qədər maraqlıdır, prezidentin başı söhbətlərə elə qarışıb ki, köməkçisi bir neçə dəfə ona yaxınlaşıb xəbərdarlıq edir, artıq getmək lazımdır. Çünki günortadan sonra Əlcəzairin 80 yaşlı prezidenti Əbdüləziz Buteflika paytaxtdan bir neçə kilometr aralıda yerləşən Zeralda iqamətgahında onu qəbul etməlidir. Ancaq Makron tələsmir, əksinə, xoşuna gəlir ki, onu gözləsinlər. Prezidentlə söhbətə gecikməyinə baxmayaraq, o, Əlcəzair paytaxtının küçələrində əhali ilə planlaşdırılan görüşdən imtina eləmir və kameraların qarşısında izdihamın içində camaatla söhbət edib, onlarla şəkillər çəkdirir. Fransanın vaxtilə Əlcəzairi müstəmləkə etməsi barədə ona sual verən bir gəncə Makron ötkəm bir tonla cavab verir: "nə mənim beynimi xarab eliyirsiz? Siz də, sizin nəsliniz də gələcəyə baxmalısınız".

Bu kiçik cümlə dərhal Fransanın və Əlcəzairin mediasında böyük əks-səda verir.

Əvvəlcə, Əlcəzair tərəfi ümid edirdi ki, bu dövlət səfəri iki gün çəkəcək. Üstəlik, birinci xanım Brijit Makron da bu səfərdə iştirak etməliydi. Ancaq bu rəsmi səfərdən bir neçə həftə əvvəl Malidəki terrorizm məsələləri ilə bağlı Əlcəzairlə Paris arasında mübahisə düşdü. Ona görə də səfərin müddəti iki gündən iyirmi dörd saata endirildi. Səfərdən bir neçə saat əvvəl Əlcəzair tərəfi cəhd etdi ki, bəzi fransız jurnalistlərinin vizalarını bloka salsınlar. Ancaq buna müvəffəq ola bilmədilər. İki "dost" dövlətin arasındakı münasibətə bax da... – bilmirsən gülləsən, ya ağlayasan... "Heç nəyi şişirtmək lazım deyil... belə şeylər tez-tez olur", – deyə fransız diplomatlarından biri aranı sakitləşdirməyə çalışır. Ola bilər, amma onu da unutmaq lazım deyil ki, bir neçə ay əvvəl, 2017-ci ilin iyununda əlcəzairlilər Parislə onların çoxdankı rəqibi Mərakeş arasındakı "isti" münasibəti həzm edə bilməmişdilər. Belə ki, Fransa prezidenti Makron Mərakeş kralının "xüsusi dəvətinə" müsbət cavab vermişdi. Yelisey sarayının mətbuat xidməti Əlcəzair tərəfin "könlünü almaq" üçün belə bir xəbər yaymışdı ki, bu çox "qısa formatda" olan bir səfərdir: "prezident Makron və xanımı Brijit kral ailəsi birlikdə Ramazan ayının son günündəki iftar yeməyində iştirak edəcək – vəssalam".

Əlcəzairdə protokolu pozaraq özünü belə "kobud" aparmaqda Makronun bir məqsədi var: Onlara özünün kim olduğunu bildirsin. Göstərsin ki, burda şef kimdir! Xaricdə, xüsusilə də Əlcəzairdə özünü belə aparmaq, iki ölkə arasında dinc münasibətlər yaratmağın, bəlkə də, ən yaxşı yolu deyil. Bundan başqa, əlcəzairlilər on il əvvəl, 2007-ci ilin dekabrında Nikola Sarkozinin ölkələrinə rəsmi səfərini hələ də nifrətlə yad edirlər. O səfərlə bağlı acı xatirələr hələ də unudulmayıb.

Belə ki, o vaxt Raşida Dati, Fadel Amara, Smain və Didier Barbelivien (?) kimi adamların müşayiəti ilə Əlcəzairə səfərə gələn yeni seçilmiş prezident Sarkozi protokola o qədər də diqqət etməmişdi. Ona görə də Əbdüləziz Butefl ika Sarkozinin beş illik hakimiyyəti dövründə onun bu hərəkətinə görə Fransa prezidentinə qarşı kin saxlayacaq. O vaxt Nikola Sarkozini ən çox Əlcəzairin iki düşməni – Müəmmər Qəddafi və Mərakeş kralı Məhəmməd VI maraqlandırırdı. Onu da qeyd edək ki, Fransa ilə onun vaxtilə müstəmləkəsi olan Əlcəzair arasındakı münasibətlər heç vaxt sadə olmayıb...

Bu dəfə əlcəzairlilər Fransua Hollandın hakimiyyəti dövründə olduğu kimi Fransadan qisas almaq istəyirlər. Makron sosialist prezidentin (Holland) keçmiş əməkdaşı deyilmi? 2017-ci ilin mayında Əlcəzairin nazirlərindən biri demişdi ki: "bunun (Makron) ipinin üstünə odun yığmaq olar". Əlcəzair çoxdandır Fransanın keçmiş İqtisadiyyat naziri (Makron) ilə maraqlanır. 2015-ci ilin sonunda Əlcəzairin yüksək rütbəli məxfi xidmət generalı "Mahfud" təxəllüslü Nurəddin Mekri İqtisadiyyat naziri Makronun çox gizli şəkildə prezident seçkilərinə hazırlaşdığını sezmişdi. O vaxt əlcəzairlilər prezidentliyə namizədliklərini irəli sürən iki nəfərlə daha çox maraqlanırdılar: Alan Jüppe və Emmanuel Makron.

Bəs 2017-ci ilin dekabrında, cəmisi iyirmi dörd saatlıq Əlcəzair torpağına ayaq basan Fransa prezidenti bu ölkənin rəhbəri Əbdüləziz Buteflika ilə görüşməyində nə məqsəd güdür? Bu qısa səfər zamanı Emmanuel Makron vaxtının çox məhdud olmasına baxmayaraq, Əbdüləziz Buteflikanın qardaşı və məsləhətçisi, rejimin güclü simalarından biri olan Səid Buteflika ilə də görüşür. Protokol rəhbəri daş atıb başını tutsa da, özünü hamının gözünə soxmağı sevən Emmanuel Makron fikrindən dönmür.

Qardaşlarla görüşdən sonra Makron əylənməyə gedir. Axşam saat 19:00-a yaxın Fransa nümayəndə heyəti Əlcəzair paytaxtının Əl-Biar adlanan hissəsində yerləşən, Zeytun Villası adlanan səfirliyə qayıdır. Fransa səfirliyinin geniş həyətində qurulan böyük bir çadırın altına, xüsusi dəvət olunmuş 500-ə yaxın qonaq – əlcəzairlilər, fransızlar, franko-əlcəzairlilər, siyasi və iqtisadi xadimlər, eləcə də incəsənət adamları yığışıb.

Bu bayram tədbirini təşkil edən Fransanın Əlcəzairdəki səfiri Ksaviye Driankurt adlı diplomatdır. Fransa Milli Administrasiya məktəbinin məzunu, Xarici İşlər Nazirliyində Alan Jüppenin müşaviri olan bu adam, Nikola Sarkozinin hakimiyyəti dövründə də bu vəzifədə işləmişdi. 2014-2017-ci illərdə Əlcəzairdə səfir olan təcrübəli diplomat Bernard Emie də vaxtilə Baş nazir Alan Jüppenin, sonra da prezident Jak Şirakın müşaviri olmuşdu. Şimali Afrika və Yaxın Şərq üzrə yüksək mütəxəssis olan bu şəxs, Əlcəzairdə xeyli əlaqə qurmuşdu. Məhz elə buna görə də Makron prezident seçiləndən az sonra onu Fransanın Xarici Kəşfiyyat Xidmətinin (DGSE) rəisi təyin etdi. Bernard Emienin bu çox həssas vəzifəyə rəhbər seçilməsini, prezidentə Fransua Hollandın hakimiyyəti dövründə təhlükəsizlik xidmətinin rəhbəri olan Bernard Bajolet tövsiyə etmişdi. Bu adam həm də Hollandın dostu idi. Ksaviye Driankurt və Bernard Emie bir-birlərinə yaxşı münasibət bəsləyirlər və hər ikisi Əlcəzairi əlinin içi kimi tanıyır. Təbii ki, bu iki nəfərin yaxın münasibətdə olması ümumi iş üçün faydalı ola bilər, həm də ki "ailənin" sirri "evdən" bayıra çıxmaz...

... Diplomatlarla xarici kəşfiyyat casusları arasındakı bu qəribə yaxınlıq iki ölkə arasındakı gərgin münasibətə yaxşı işarədir.

***(ardı var)***

## “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Gömrük Əməkdaşlıq Fonduna dair Qrant Müqaviləsi”nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2024-cü il iyunun 29-da Brüssel şəhərində imzalanmış “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Gömrük Əməkdaşlıq Fonduna dair Qrant Müqaviləsi” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Qrant Müqaviləsi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Qrant Müqaviləsinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ümumdünya Gömrük Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2024-cü il**

## “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin 58-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 58-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin 59-1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.8. “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun 21.15-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

**2** “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 22 (Cild I); 2024, № 6 (I kitab), maddə 677) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasda “və 39-cu maddəsində” sözləri “, 39-cu maddəsində və 58-ci maddəsinin birinci və ikinci cümlələrində” sözləri ilə əvəz edilsin;

2.2. üçüncü–beşinci abzaslar müvafiq olaraq dördüncü–altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“həmin Əsasnamənin 58-ci maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”.

**3** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 471 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa “Qanununun” sözündən sonra “18.9-cu maddəsinin birinci və ikinci cümlələrində və” sözləri əlavə edilsin;

3.2. üçüncü–beşinci abzaslar müvafiq olaraq dördüncü–altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“həmin Qanunun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”.

**4.** “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 472 (Cild I) 3-cü hissəsinin birinci abzasına “116-cı” sözlərindən əvvəl ”59-1-ci maddəsinin birinci və ikinci cümlələrində,” sözləri əlavə edilsin.

**5** “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 594 (Cild I); 2024, № 5 (I kitab), maddə 523) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə “23.4-1-ci” sözlərindən əvvəl “21.13-cü maddəsinin birinci və ikinci cümlələrində,” sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

“2.1-1. həmin Qanunun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

5.3. 2.7-ci bənd ləğv edilsin.

**6** “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 avqust tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 719 (Cild I) 2.1-ci bəndinə “26.1-ci” sözlərindən əvvəl “21.15-ci maddəsinin birinci və ikinci cümlələrində,” sözləri əlavə edilsin.

**7** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 dekabr 2024-cü il**

## Azərbaycan D-8 təşkilatının üzvü seçilib

**Dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır.

Ölkəmiz ilk dəfə Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə təmsil olunub.

Qahirə şəhərində keçirilən XI Sammitdə ölkəmizi Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik “İslam Səkkizliyi” adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir.

Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

Bu çərçivədə, həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir.

Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın Katibliyi İstanbul şəhərində yerləşir.

***XQ***

## Baş nazir İƏT-in Qahirə Zirvəsində



**Dekabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşündə iştirak edib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Misir Prezidenti Əbdülfəttah əs-Sisi Baş nazir Əli Əsədovu və Zirvə görüşündə iştirak edən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarını qarşıladıqdan sonra birgə foto çəkdirilib.

Zirvə görüşündə D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan Respublikasının təşkilata üzv seçildiyi elan edilib.

Zirvə görüşündə çıxış edən Ə.Əsədov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8-in 2017-ci ildə İstanbulda keçirilmiş 9-cu Zirvə görüşündə iştirak edib.

Bugünkü Zirvə toplantısında Azərbaycan nümayəndə heyətinin iştirakının xüsusi tarixi əhəmiyyət daşıdığı bildirilərək, ölkəmizin D-8-ə üzvlüyü ilə bağlı qəbul edilən qərara görə təşkilatın üzv dövlətlərinə minnətdarlıq ifadə edildi.

Bildirildi ki, Azərbaycan təşkilatın təməl prinsiplərinin qorunmasına, D-8 çərçivəsində əməkdaşlığın daha da dərinləşməsinə yaxından töhfə verəcək.

Müasir toqquşmalar və siyasi gərginlik fonunda geniş regionumuzda təhlükəsizliyin və sabitliyin təmin edilməsinin, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Bu xüsusda, geosiyasi mövqeyi, geniş iqtisadi potensialı və müasir nəqliyyat infrastrukturu ilə Azərbaycanın özünü etibarlı regional mərkəzlərdən biri kimi təsdiq etdiyi vurğulanıb.

“Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan mühüm enerji layihələrinin həyata keçirilməsində və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində əhəmiyyətli rola malikdir”, – deyə Baş nazir bildirib.

O qeyd edib ki, Azərbaycan bir sıra beynəlxalq təşkilatlara uğurlu sədrliklə yanaşı, qlobal problemlərin həllinə öz töhfəsini verir.

“Ölkəmizin BMT-dən sonra dünyanın ən böyük təsisatı olan Qoşulmama Hərəkatına 4 illik sədrliyi, eləcə də dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən COP29 üzrə sədrliyi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisidir”, – deyə Ə.Əsədov əlavə edib.

Dövlət və hökumət başçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. İşğal zamanı azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, ərazilərimizdə urbisid, kultursid və ekosidin törədilməsi, Azərbaycan xalqının mədəni və dini irsinin məhv edilməsi barədə sammit iştirakçılarına məlumat verilib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə hazırda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, kənd və şəhərlərin tamamilə yenidən qurulduğu bildirilib. Qeyd edilib ki, yeni reallıqlar regionda davamlı sülh və sabitlik, həmçinin qarşılıqlı faydalı əməkdaşlıq üçün unikal imkanlar açır. Azərbaycan regional sülh gündəliyinə sadiqdir və bu istiqamətdə qəti addımlarını davam etdirəcək.

Dünyada islamofobiya, ekstremizm və radikalizmin artdığı dövrdə, üzv dövlətlərinin əhalisinin ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən D-8 çərçivəsində İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb. Tarixən Şərq ilə Qərb arasında körpü rolunu oynamış və İslam dünyasının mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olmuş Azərbaycanın multikulturalizm, tolerantlıq mühitinin formalaşmasına, mədəniyyətlərarası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi diqqətə çatdırılıb.

Suriyada baş verən son hadisələrə toxunan Baş nazir Əsəd rejiminin süqutundan sonra ölkədə sülhün və sabitliyin bərpa olunmasının və vətəndaş qarşıdurmasına son qoyulmasının mütləq dərəcədə vacib olduğunu qeyd edib. Azərbaycanın Suriyanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi bildirilərək bütün məsələlərin Suriya xalqının iradəsinə uyğun şəkildə və ölkədaxili siyasi dialoq vasitəsilə həll olunacağına ümidvarlıq ifadə edilib. Vurğulanıb ki, Azərbaycan Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasında öz dəstəyini əsirgəməyəcək, bu məsələdə praktiki addımların atılması istiqamətində qardaş Türkiyə ilə yaxın təmaslar davam etdirilməkdədir.

Bildirilib ki, müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycan bundan sonra da İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcək.

Zirvə görüşündə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirdəki səfirimiz Elxan Poluxov iştirak ediblər.

*

**Dekabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşü çərçivəsində Yaxın Şərqdəki böhrana həsr olunmuş xüsusi sessiyada iştirak edib.**



Sessiyada çıxış edən Ə.Əsədov Yaxın Şərqdə davam edən böhranın dərin narahatlıq doğurduğunu bildirib. Qeyd edilib ki, Qəzza və digər Fələstin ərazilərində on minlərlə günahsız insanın həyatını itirməsi, mülki infrastrukturun dağıdılması ilə müşayiət olunan böhranın humanitar nəticələri kritik səviyyəyə çatıb. Bu baxımdan daha çox qan tökülməsinin qarşısının alınması üçün təcili tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Bildirilib ki, İslam dünyasının ayrılmaz parçası olan Azərbaycan bu ağır dövrdə Qəzzanın sakinləri ilə həmrəyliyini ifadə edir, zorakılığın artmasını, qeyri-bərabər gücdən istifadəni və mülki şəxslərin həyatlarını itirmələrini qətiyyətlə pisləyir. Azərbaycan Fələstinə maddi yardım etmək üçün hər zaman səy göstərib. Ölkəmiz bu böhrandan təsirlənən Fələstin xalqına humanitar yardım göstərmək məqsədilə 2 milyon ABŞ dolları ayırıb. Bundan əlavə, Azərbaycan Fələstində 600 şagirdlik məktəbin inşasına da vəsait ayırıb.

Qeyd edilib ki, humanitar yardımdan əlavə, Azərbaycan Fələstinə beynəlxalq dəstək əldə etmək üçün də öncül rol oynamaqdadır: “Bu xüsusda, biz bir neçə yüksəksəviyyəli tədbirə ev sahibliyi etmişik. Bunların arasında İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin yaradılması və Qüdsün inkişafını dəstəkləmək məqsədilə Donor Konfransını xüsusi qeyd etmək istərdim”.

Gərginliyin bölgəyə yayılma risklərinin böyük narahatlıq doğurduğunu deyən Baş nazir Azərbaycanın bütün tərəfləri təmkinli davranmağa və vəziyyətin daha da gərginləşməsinə səbəb ola biləcək hər hansı bir hərəkətdən çəkinməyə çağırdığını qeyd edib: “Biz atəşkəsin əldə olunması, zəruri humanitar yardımın təmin edilməsi və münaqişənin səbəblərinin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyəti birgə çalışmağa çağırırıq. Böhrandan diplomatik çıxış yollarının tapılması üçün dinc siyasi proses təşviq edilməlidir”.

Diqqətə çatdırılıb ki, Azərbaycan münaqişənin Şərqi Qüdsün Fələstinin paytaxtı olmaqla, iki dövlət prinsipi əsasında həllini birmənalı şəkildə və qətiyyətlə dəstəkləyir. Azərbaycanın bundan sonra da dialoq və barışığı təşviq edən, İsrail-Fələstin münaqişəsinin ədalətli, davamlı həllinə dəstək verən səylərə sadiq qalacağı bildirilib.

Sessiyada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ölkəmizin Misirdəki səfiri Elxan Poluxov da iştirak ediblər.

*

**Dekabrın 19-da Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşündə iştirak edən Azərbaycanın Baş naziri Əli Əsədov bir sıra görüşlər keçirib.**

Baş nazir Əli Əsədov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif və Nigeriya Federativ Respublikasının xarici işlər naziri Yusuf Tuqqar ilə görüşüb.

***XQ***

# Prezident İlham Əliyevin "Rossiya Seqodnya"nın Baş direktoruna müsahibəsində səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir







**Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədə səsləndirdiyi fikirlər dünya mətbuatı tərəfindən geniş işıqlandırılıb.**

Rusiyanın **TASS** agentliyi Prezident İlham Əliyevin rəsmi Bakının Qarabağın bərpasında Rusiya şirkətlərinin iştirakını və Rusiyadan investisiyaların yatırılmasını alqışlaması barədə dediklərini oxucularına çatdırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti xarici investisiyalar üzrə birinci layihənin Rusiyaya məxsus olduğunu vurğulayıb.

**"News.ru"** nəşri Azərbaycan Liderinin Avropa İttifaqının xarici məsələlər üzrə nümayəndəsi Borrel barədə söylədiklərini önə çəkib. Bildirilib ki, Prezident İlham Əliyev COP-da çıxışlarının birində Borreldən sitat gətirərək, onun Avropanı çiçəklənən bağa, qalanlarını isə cəngəlliyə oxşatdığını deyib. Materialda, həmçinin dövlətimizin başçısının "Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib" fikirləri yer alıb.

**"RBK"** nəşri Prezident İlham Əliyevin Gürcüstanda son günlər baş verən hadisələrə münasibətindən yazıb. Qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Gürcüstanda baş verən iğtişaşlarda Fransa prezidenti Emmanuel Makronun əli olduğunu, öz ölkəsində rahat durmadığı və Gürcüstana da əl atdığını vurğulayıb.

**"Tatarıstan-online"** qəzeti isə dövlətimizin başçısının Qarabağın bərpasına ilk investisiya layihəsinin Tatarıstan tərəfindən həyata keçirilməsi barədə fikirlərinə diqqət çəkib. Qeyd olunub ki, Azərbaycan Prezidenti Cəbrayıl rayonunda "KamAZ" xidmət mərkəzinin açılışını xatırladıb. O vurğulayıb ki, bu, xarici investisiyalar üzrə birinci layihədir.

**"İnterfaks"** agentliyi Prezident İlham Əliyevin Ermənistandakı Avropa İttifaqı müşahidəçilərinin NATO missiyasına çevrilməsi barədə fikirlərini sitat gətirib. Bildirilir ki, Azərbaycan Lideri "Avropa müşahidəçiləri" pərdəsi altında Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradıldığını diqqətə çatdırıb. Bundan əlavə, agentlik Azərbaycan Prezidentinin Ermənistanın Fransa, Hindistan və ABŞ tərəfindən silahlandırılması məsələsinə də münasibət bildirdiyini yazıb.

**"Qazeta.ru"** nəşri qeyd edir ki, Prezident İlham Əliyevin rusiyalı həmkarının komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi, öz gücünə, qətiyyətinə inam diləyib. Rusiya cəmiyyətinin hər hansı bir cəmiyyət kimi ağır dövrdə birləşdiyini xatırladan Azərbaycan Lideri bu konsolidasiyanın gələcəkdə davam etməsini arzulayıb.

Türkiyənin **Anadolu Agentliyinin, "Cumhuriyet"** qəzetinin, **"BengüTürk"** telekanalının xəbərlərində vurğulanır ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyə ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində müttəfiqlik münasibətlərindən bəhs edərək, hər il ölkələrimizin 10-dan çox birgə təlim keçirdiyini, bunun Qafqazda sabitlik üçün mühüm amil olduğunu bildirib.

**"HaberGlobal"** telekanalının saytında yayımlanan yazıda dövlətimizin başçısının Ermənistanla sülh danışıqlarında razılaşdırılmayan iki bəndin qaldığını, bunların "tərəflərin bir-birinə qarşı beynəlxalq iddialar irəli sürməməsi" və "sərhədlərdə başqa dövlətlərin nümayəndələrinin yerləşdirməməsi" olduğunu bəyan etdiyi diqqətə çatdırılıb.

**"Star"** qəzeti isə Prezident İlham Əliyevin jurnalistin Türkiyənin Azərbaycanda hərbi bazasına ehtiyacın olub-olmaması ilə bağlı sualına cavabını dərc edib: "Müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir".

**"Başka"** qəzeti və **"CUMHA"** xəbər agentliyi isə dövlətimizin başçısının Fransanın və digər ölkələrin Ermənistanı silahlandırması ilə bağlı fikirlərini oxuculara çatdırıb. Qəzet dövlətimizin başçısına istinadla yazıb: "Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır və Azərbaycan üçün təhlükə yaradır. ...Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik".

**"Artı Gerçek"** portalı isə bildirib ki, Azərbaycan Prezidenti ölkədə Türkiyənin hərbi bazasının yaradılması planı ilə bağlı yayılan xəbərləri "siyasi spekulyasiya" adlandırıb və belə bir bazanın yaradılmasına ehtiyacın olmadığını vurğulayıb.

**"Gazete Kritik"** nəşri isə dövlətimizin başçısının Rusiya ilə Qərb arasında davam edən qarşıdurmaya münasibət bildirdiyini yazıb. Prezident İlham Əliyevin bu fikirləri sitat gətirilib: "NATO-nun və Rusiyanın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək".

Şimali Kipr Türk Respublikasının **"Türk Ajansı Kipr"** xəbər agentliyinin və **"Kıbrıs Türk"** qəzetinin informasiyalarında oxucuların diqqətinə çatdırılır ki, Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın Türkiyə ilə təhlükəsizlik sahəsində müttəfiqlik münasibətlərindən də danışıb. Türkiyə ilə hərbi əlaqələrin müstəqilliyimizin ilk günlərindən davam etdiyini, rəsmi Ankaranın Azərbaycan Ordusunun modernləşdirilməsində və yüksək standartlara çatmasında böyük rol oynadığını vurğulayıb.

Rumıniyanın qabaqcıl media orqanlarında Prezident İlham Əliyevin müsahibəsindəki fikirləri geniş yayılıb.

**"AGERPRES"** milli xəbər agentliyi, **"digi24.ro"**, **"stirileprotv.ro", "adevarul.ro", "capital.ro", "financialintelligence.ro"** portalları, **"Prima Pagina", "Ziarul Amprenta"** kimi qəzetlər və digər nəşrlər xəbərlərində Prezident İlham Əliyevin müsahibəsində Azərbaycandan Avropaya elektrik enerjisi nəql edəcək sualtı kabelin texniki-iqtisadi əsaslandırılmasının yaxın vaxtlarda tamamlanacağını bildirdiyini qeyd ediblər. "İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq", – deyə media resursları dövlətimizin başçısına istinadla vurğulayıblar.

Əlcəzairin **"al24news"** nəşri Prezident İlham Əliyevin müsahibəsində Fransanın Mayot və Yeni Kaledoniyanın qanunsuz işğalını kəskin tənqid etdiyini bildirib. Portal dövlətimizin başçısının Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanın qətlə yetirilməsini, 100-dən çoxunun yaralanmasını, 1000-dən artığının isə həbs olunmasını kəskin şəkildə pislədiyini və bunlara görə Fransa hökumətini günahlandırdığını qeyd edib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev bunun Makron diktaturasının nəticəsi olduğunu və Yeni Kaledoniyanı dəstəklədiyinə görə rəsmi Parisin Azərbaycanı ittiham etdiyini vurğulayıb.

**"Euromedia24"** portalı bildirir ki, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində Rusiya ilə NATO arasında qorxulu müharibə ssenarisinin baş verməməsi üçün müdrikliyin kifayət etdiyini diqqətə çatdırıb. Portal dövlətimizin başçısının bununla bağlı bu fikirlərini sitat gətirib: "Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin".

Bolqarıstanın **"Zemya"** xəbər portalında dərc olunan "Prezident İlham Əliyev ABŞ-dakı "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdı" sərlövhəli yazıda, eyni zamanda, **"Fokus"** xəbər agentliyi müsahibə ilə bağlı materialında dövlətimizin başçısının ABŞ-dakı "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdığını, bu addımın yeni müharibəyə səbəb ola biləcəyinə işarə etdiyi bildirib.

Qeyd olunub ki, Azərbaycan Prezidenti bununla bağlı bəyan edib: "...erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın".

Saytlar yazır ki, dövlət başçısı, həmçinin Azərbaycanın adekvat tədbirlər görməyə məcbur qaldığını, 2025-ci ildə hərbi büdcənin rekord məbləğ olacağını söyləyib.

Bu ölkənin **"Faktı", "Classa"** və **"NetNews"** Prezident İlham Əliyevin Azərbaycan–Türkiyə hərbi, strateji müttəfiqlik əlaqələrinə, habelə Rusiyanın azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə investisiya yatırması ilə bağlı fikirlərini oxucularına çatdırıb.

Yunanıstanın **"EL"** portalı isə yazıb ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyənin Azərbaycanda hərbi baza qurmasına ehtiyacın olmadığını bildirib. Azərbaycanın dövlət başçısı bununla bağlı yayılan xəbərləri "siyasi təxmin" olaraq qiymətləndirib. Vurğulayıb ki, Şuşa Bəyannaməsi iki ölkə arasında qarşılıqlı hərbi dəstəyi təmin edir.

Portal, həmçinin Azərbaycan Prezidentinin NATO ilə Rusiya arasında müharibə ehtimalı ilə bağlı fikirlərini də yayımlayıb. Dövlətimizin başçısına istinadla qeyd olunub ki, Rusiya ilə NATO arasındakı gərginlik bir çox ölkələrdə narahatlıq doğurur. NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir.

Gürcüstan mediası da Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində yer alan fikirləri diqqət mərkəzində saxlayıb.

**"Qafqazturk.com"** dövlətimizin başçısının Azərbaycan–Gürcüstan münasibətlərinə dair bu fikirləri oxucularına çatdırıb: "Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. … Ona görə də orada vəziyyətin sabitliyinin pozulması hər iki ölkə üçün eyni dərəcədə zərərlidir". Xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti, həmçinin Fransa Prezidenti Emmanuel Makronun Gürcüstana da əl uzatdığını vurğulayıb.

**"İnterpressnews.ge"** portalı Prezident İlham Əliyevin Fransa Prezidenti Makronun Gürcüstana da əl uzatmasına münasibət bildirdiyini qeyd edərək yazıb: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır".

**"Sputnik-georgia"** isə dövlətimizin başçısının Türkiyə ilə əlaqələr, Azərbaycanda Türkiyənin hərbi bazası ilə bağlı suala cavabını oxucularının diqqətinə çatdırıb. Bildirilib ki, Azərbaycan Türkiyə ilə müstəqilliyini bərpa etdiyi ilk illərdən hərbi əməkdaşlıq edir və bu əməkdaşlıq davam edir.

"Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün". Dövlətimizin başçısının bu fikirləri isə **"aktual.ge"** portalında yayımlanan məqalədə dərc olunub.

**"Aktual.ge"** portalı, həmçinin **"realnews.ge", "24news.ge"** saytları Prezident İlham Əliyevin Azərbaycanın Gürcüstanla dostluq və tərəfdaşlıq münasibətlərinə, bu ölkədəki vəziyyətə dair fikirlərinə geniş yer ayırıb.

Qazaxıstanın **"tengrinews"** portalı yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Fransa prezidenti Makronun Gürcüstandakı nümayişlərə müdaxilə etdiyini açıqlayıb. Dövlət başçısı bununla bağlı qeyd edib: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır". Sayt Prezidentin Gürcüstanda fəaliyyət göstərən və xaricdən maliyyələşən QHT-lərlə bağlı fikirlərinə də geniş yer ayırıb.

**"Toppress"** saytı isə Azərbaycan Prezidentinin USAID-ın fəaliyyətinə dair fikirlərinə toxunub. Sayt dövlətimizin başçısının bu fikirlərini təqdim edib: "Onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin".

**"Ustinka"** portalı isə qeyd edir ki, Prezident İlham Əliyev Azərbaycanın Rusiyadan Qarabağa investisiyaların qəbul edilməsinə hazır olduğunu vurğulayıb. Bildirib ki, ilk investisiya layihəsin Tatarıstan həyata keçirib. " Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq", – deyə dövlət başçısı əlavə edib.

Qeyd edək ki, müxtəlif ölkələrin informasiya resursları dövlətimizin başçısının müsahibədə müxtəlif mövzularla bağlı səsləndirdiyi fikirləri yaymaqda davam edir.

***XQ***

# Azərbaycanın növbəti beynəlxalq uğuru

## *Ölkəmiz nüfuzlu İslam təşkilatına üzv oldu*



**Zəngin təbii resurslara və strateji coğrafi mövqeyi ilə seçilən İslam ölkələrinin üzv olduqları təşkilatlar dünya siyasətində getdikcə daha fəal rol oynayırlar. Azərbaycan da belə qurumlarda yaxından iştirak edir və müsəlman ölkələri ilə əlaqələrini daim gücləndirir.**

Bu mənada, dekabrın 19-da Azərbaycanın "İslam Səkkizliyi" (D-8) təşkilatına üzv olması daha bir tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin növbəti beynəlxalq uğurdur. Belə bir nüfuzlu təşkilata üzv olmaqla Azərbaycan D-8-in timsalında nüfuzlu siyasi platforma və tərəfdaş qazanır, fəal siyasi gündəliyini daha geniş coğrafiyaya yaymaq imkanı əldə edir.

Beləliklə, dekabrın 19-da inkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan yekdilliklə D-8 təşkilatının üzvü seçildi. Bu, şübhəsiz, müstəqillik tariximizdə beynəlxalq diplomatik uğurlarımız sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalacaq.

Xatırladaq ki, D-8 Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında təsis olunmuşdu. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan edilmişdi. Eyni zamanda, D-8 ölkələri İslam İnkişaf Bankı ilə Anlaşma Memorandumu imzalamışdılar.

D-8 çərçivəsində komissiyanın nəzdində 10 işçi qrupu fəaliyyət göstərir."İslam səkkizliyi", əsasən, iqtisadı əməkdaşlığı ön plana çəkən və müxtəlif sahələrdə maraqlı iqtisadi əməkdaşlıq formatı yaradan bir təşkilatdır. 2017-ci ildə İstanbulda keçirilən doqquzuncu sammit zamanı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan təşkilat üzvlərini milli valyutalarda hesablaşmalara keçməyə və ölkələrin sayını 20-yə çatdırmağa dəvət etmişdi.

3 qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-si , 130 milyard dollarlıq ticarət dövriyyəsi olan, əhalisinin sayı dünya müsəlmanlarının 60 faizini təşkil edən (ümumi əhali 1,2 milyardan artıqdır) və böyük iqtisadi potensiala malik, "İslam Səkkizliyi" adlanan D-8-ə Azərbaycanın üzvlüyü ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun və göstərilən etimadın nəticəsidir.

D-8 üzvlərinin ərazisində planetin enerji ehtiyatlarının çoxu cəmləşib. Dünyanın aparıcı nəqliyyat-kommunikasiya kanalları məhz İslam dünyası ölkələrinin ərazisindən keçir. Təşkilat İslam dünyasını nüfuzlu güc mərkəzlərindən birinə çevrilmək və aparıcı dünya dövlətləri ilə bərabərhüquqlu dialoqa girmək niyyətində olduğunu nümayiş etdirir. D-8 qlobal iqtisadi güc mərkəzlərilə əməkdaşlıq etmək və planetdə sülh və əminamanlıq yaratmaq üçün təsis olunduğunu bildirir. Yəni digər güc mərkəzlərilə qarşıdurmaya yox, ümumi rifah naminə əməkdaşlıq etmək niyyəti daşıyır. Əlbəttə, malik olduğu potensial "İslam Səkkizliyi"ni digər güc mərkəzlərinin hesablaşdığı qüvvəyə çevirir.

Beynəlxalq aləmin nüfuzlu aktoru kimi Azərbaycan 2022-ci il iyulun 27-də təşkilata üzvlüklə bağlı müraciət etmişdi və dekabrın 19-u ölkəmiz yekdilliklə D-8 təşkilatının üzvü seçildi. Bu, əlbəttə, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Xatırladaq ki, dövlət başçımız ilk dəfə olaraq fəxri İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmişdi.

Azərbaycanın təşkilata üzvlüyü D-8-in də geosiyasi və geoiqtisadi çəkisini artıracaq. Bakının üzvlüyü isə təşkilatın təsir coğrafiyasını strateji region sayılan Cənubi Qafqazadək genişləndirəcək. Zəngin karbohidrogen resurslarına malik Azərbaycanın təşkilata üzv olması D-8-in iqtisadi gücünü artıracaq və bir sıra vacib məsələlərdə ölkəmizin ümumi cəbhədən çıxış etməsinə şərait yaradacaq.

Bir sözlə, ölkəmizin D-8 üzvlüyü bir daha sübut edir ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq aləmin rəğbətini qazanan dövlətlərdəndir. Nəhayət, Azərbaycanın üzvlüyü sayəsində təşkilat D-9-a çevriləcək, "İslam Səkkizliyi" genişlənmək üçün yeni təkan alacaq. Bu isə təşkilatın gələcəkdə daha da güclənməsinə imkan verəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# MSK-da bələdiyyə seçkilərinə dair seminar

**2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki subyektləri üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.**

Genişmiqyaslı proqrama əsasən, dekabrın 19-da bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair seminar təşkil olunub. Qeyd etmək lazımdır ki, namizədliyin qeydə alınması üçün təqdim olunan imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə dairə seçki komissiyaları nəzdindəki işçi qruplarını əhatə edən bu layihə ənənəvi şəkildə gerçəkləşdirilməklə, onların fəaliyyətinin daha da təkmilləşdirilməsinə mühüm töhfələr verib və sonuncu belə tədbir qısa müddət əvvəl ölkəmizdə Milli Məclisə seçkilər zamanı reallaşdırılıb. Bütün sadalananlar nəzərə alınaraq, budəfəki seminar bələdiyyə seçkilərində namizədlərin irəli sürülməsi və qeydə alınması prosesinin dinamik və intensiv davam etdiyi bir mərhələdə müxtəlif aidiyyəti məsələlərin və təcrübədə ortaya çıxan halların tam praktiki müzakirəsinə həsr olunub.

Seminar Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımovun açılış nitqi ilə başlayıb. O, çıxışında bir sıra məqamlarla yanaşı, komissiya tərəfindən ardıcıl, sistemli şəkildə həyata keçirilən maarifləndirmə layihələrindən danışıb, bu layihələrin seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsindəki əhəmiyyətini xüsusi vurğulayıb. R.Qasımov, həmçinin bələdiyyə seçkilərində vətəndaşların birbaşa Konstitusiya ilə təsbit edilmiş passiv seçki hüquqlarının daha səmərəli təmin olunmasında dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən işçi qruplarının üzərinə böyük məsuliyyət düşdüyünü xatırladıb, onların öz vəzifə və səlahiyyətlərini yerinə yetirərkən qanunvericiliyin tələblərinə dəqiqliklə əməl etmələrinin zəruriliyini diqqətə çatdırıb.

Tədbirin açılışından sonra gündəliyə uyğun olaraq, komissiya üzvlərinin bələdiyyə seçkilərində passiv seçki hüququnun mənsubiyyəti və onun realizə imkanları, namizədlərin qeydə alınması prosesinin qanunvericilik əsasları və qaydaları, eləcə də işçi qrupunun fəaliyyətinin praktiki aspektləri, əldə olunmuş təcrübə barədə təqdimatları dinlənilib. Əyani vəsaitlərdən də istifadə edilməklə keçirilən təqdimatlarla iştirakçılar mövzularla bağlı ətraflı məlumatlandırılıb.

**XQ**

# Aqrar subsidiya bolluğa təkan verir

**Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin 2024-cü il dekabrın 17-də imzaladığı fərmana əsasən "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" dövlət başçısının 2019-cu il 27 iyun tarixli 759 nömrəli fərmanında bir sıra dəyişikliklər edilib.**

Həmin dəyişikliklərdən ən mühümü əkin subsidiyaları ilə bağlıdır. Belə ki, yeni sənədə əsasən, fermerlərə əkin subsidiyalarının verilməsi müddəti 2030-cu il yanvarın 1-dək uzadılıb. Xatırladaq ki, əkin subsidiyası fermerə əkin, çoxillik əkmə altında olan kənd təsərrüfatı yerlərində həmin yerlərin təyinatına uyğun kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilir.

Azərbaycanda əkin subsidiyalarının verilməsi müddətinin uzadılması kənd təsərrüfatına müsbət təsir göstərəcək. Ekspertlərin fikrincə, belə tədbirlər kənd təsərrüfatı sektorunun inkişafını stimullaşdırmağa, fermerlərin daha səmərəli fəaliyyət göstərmələrinə və ölkənin qida təhlükəsizliyinin təmin edilməsinə kömək edir. Əkin subsidiyaları fermerlərə birbaşa maliyyə dəstəyi təmin edir, bu da onların məhsul istehsalını artırmalarına imkan verir. Subsidiyalar uzadıldıqda, istehsal xərcləri azalır və məhsuldarlıq daha da artır. Bu, kənd təsərrüfatı istehsalının daha rentabelli olmasına səbəb ola bilər. Bu, kənd təsərrüfatına marağı artıra və ümumi məhsul istehsalının artmasına gətirib çıxara bilər.



Qanunvericiliyə əsasən, fermer əkin subsidiyası ilə bağlı təqvim ili ərzində apardığı əkin barədə məlumatı "Subsidiya İnformasiya Sistemi"nə (SİS) daxil edərək avtomatlaşdırılmış qaydada formalaşan elektron bəyannaməni təsdiq edir və subsidiya almaq üçün müraciət edir. Agentlik müraciəti 30 iş günü müddətində təsdiq etdikdən sonra müvafiq ödəniş xətti barədə fermerə məlumat (SMS, elektron poçt və ya bilavasitə SİS vasitəsilə) verir.

Fermer müvafiq ödəniş xətti üzrə kart hesabında olan əkin subsidiyası balansından kənd təsərrüfatı istehsal vasitələrinin satın alınması üçün istifadə etdikcə bu barədə SİS vasitəsilə ona göndərilən məlumatı (bildirişi) təsdiq edir. Kart hesabında olan və müvafiq xərcləməyə uyğun məbləğ avtomatlaşdırılmış qaydada təchizatçının hesabına köçürülür. Yeri gəlmişkən, dəyişikliklərə əsasən, sənədə "kart hesabı" sözlərindən sonra "hüquqi şəxsin cari hesabı sözləri" əlavə edilib.

Əvvəlki fərmanda edilmiş digər mühüm dəyişiklik "dincə qoyulmuş torpaq subsidiyası" ilə bağlıdır. Bu, əkin subsidiyasına görə müraciət edilmiş torpaqlarda kənd təsərrüfatı bitkilərinin Aqrar Subsidiya Şurasının müəyyən etdiyi dövr ərzində ardıcıl olaraq becərilməsindən sonra həmin torpaqların münbitliyinin bərpası və alaq otlarının azaldılması məqsədilə 1 il müddətinə dincə qoyulan sahəsinin hər hektarına görə verilən subsidiya növüdür.

Yeni sənədə əsasən, dincə qoyulmuş torpaq subsidiyasının tətbiqi üçün ərazilərin siyahısı hazırlanmalı, həmin ərazilərin ardıcıl becərilmə dövrləri və onlara tətbiq edilən dincə qoyulmuş torpaq əmsalları təsdiq edilməlidir. Eyni zamanda, əkin subsidiyasının tətbiqi üçün vahid əkin sahəsi elan edilən yerlərin siyahısı, regionlar üzrə bitkilərin siyahısı və onlara tətbiq edilən əkin əmsalları, həmçinin "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aqrar sığorta predmetinə aid bitkilərdən sığortalanması tələb olunanların siyahısı və onların əkin sahələrinin minimum ölçüsünə dair tələbləri təsdiq olunmalıdır. Dövlət başçısının imzaladığı yeni sənəddə dincə qoyulmuş torpaq subsidiyasının məbləğinin hesablanması qaydası da öz əksini tapıb.

Bundan əlavə, sənəddə dövlət başçısı tərəfindən aqrar subsidiyalarla bağlı bir sıra zəruri dəyişikliklər də edilib. Şübhəsiz ki, bütün bunlar aqrar sektorda subsidiya mexanizminin daha da təkmilləşdirilməsinə imkan yaratmaqla yanaşı, fermerlərin dövlət vəsaitinə əlçatanlığını daha da artıracaq.

### Ekspert rəyi

**Eldəniz ƏMİROV, iqtisadçı-ekspert**



Ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyi uzun illərdir ki, davamlı xarakter daşıyır. Bu, bilavasitə ölkə əhalisinin 36 faizinin çalışdığı sahə olduğundan dövlət tərəfindən daima nəzarətdədir. Hazırda kənd təsərrüfatı subyektlərinin dəstəklənməsi istiqamətində bir sıra dövlət dəstəyi mexanizmləri tətbiq olunur ki, onlardan biri də subsidiyaların verilməsidir.

Subsidiyaların verilməsinin uzadılması təkcə əkin subsidiyasılarını əhatə etmir. Eyni zamanda, məhsula görə də əlavə suvarma sistemləri ilə təmin edilmiş ərazilərə görə subsidiyaların təyin edilməsi daha müasir yanaşmaların kənd təsərrüfatında tətbiq edilməsini dəstəkləyən addım kimi qiymətləndirilə bilər.

Digər istiqamət burada uçotun dəqiqləşdirilməsinə xidmət edir. Belə ki növbəti ilin yanvarın 1-dən etibarən fermerlərə aqrar sahədə subsidiyalar o halda veriləcək ki, torpaq üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış əldə olunsun. Bu isə torpaqların daha səmərəli istifadə edilməsi və şəffaflığın təmin olunması baxımından önəmli addımdır.

# Bakı limanı genişlənir

## *Tezliklə beynəlxalq terminalın II mərhələsinin inşasına başlanacaq*

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovun bildirdiyinə əsasən, limanın ikinci mərhələsinin inşası ilə bağlı hazırlıq layihəsi və dizayn işləri yekunlaşdırılıb. Tikintiyə başlanılması qərarının isə gələn ilin əvvəlində veriləcəyi nəzərdə tutulub.**



Onun sözlərinə görə, Bakı Limanının inşasının birinci mərhələsə 2018-ci ildə başa çatdırılıb. Hazırda limanın yükaşırma həcmi illik 15 milyon ton olub. İkinci mərhələnin yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yükün aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi planlaşdırılıb.

2024-cü ilin nəticələrinə toxunan T. Ziyadov bildirib: "Göstəricilərimiz proqnozların üzərindədir. Məsələn, konteyner, TIR daşımalarında çox yüksək nəticələr əldə edilib. Bu istiqamətdə göstəricilərin gələn il daha da artacağı gözlənilir. Xüsusilə gömrük rəsmiləşdirilməsi nəticəsində idxal-ixrac əməliyyatlarında artım olacağı proqnozlaşdırılır. Ötən il ən böyük artım tranzit sahəsində müşahidə olunub. Söhbət xüsusilə Çindən Avropa istiqamətində daşınan yüklərin tranzitindən gedir. Bu, əlbəttə ki, Orta Dəhliz layihəsi ilə bağlıdır. Biz bu artımın dayanıqlı olmasını istəyirik".

Xatırladaq ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə uzanan beynəlxalq nəqliyyat dəhlizidir. 2023-cü ildə bu marşrutla 2,7 milyon tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur. Bu ilin yanvar-noyabr aylarında isə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yük daşımalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 63 faiz artaraq 4,1 milyon tona çatıb.

Bakı Limanında 2023-cü ildə 7,4 milyon ton yük aşırılıb. Bu, 2022-ci illə müqayisədə, təxminən, 16 faiz çoxdur. Ümumi yükaşırmanın 5,3 milyon tonu və yaxud 72 faizi tranzit yüklərin payına düşüb. Hesabat ilində vaqon aşırılması 3,5 faiz azalaraq 37,3 min ədəd olub. Vaqonların 18,6 mini və yaxud 49,7 faizi Bakı–Türkmənbaşı–Bakı, 18,7 mini və yaxud 50,3 faizi isə Bakı–Kurık–Aktau–Bakı istiqamətində hərəkət edib.

Bununla yanaşı, 2023-cü ildə iri həcmli nəqliyyat vasitələrinin (TIR) sayı əvvəlki ilə nisbətən 5,3 faiz artaraq 54,2 min ədəd olub. Bu nəqliyyat vasitələrinin 25,8 mini (47,6 faizi) Bakı–Türkmənbaşı–Bakı, 28,4 mini (52,4 faizi) isə Bakı Kurık–Bakı istiqamətində daşınıb. Hesabat dövründə konteynerlərin aşırılması TEU ekvivalentində 16 faiz azalaraq 43,9 min olub.

Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində qarşıdakı 3 il ərzində çeşidləmə məntəqəsində əlavə 4 dəmiryolu xətti və konteyner terminalı tikiləcək ki, bu da yüklərin çeşidlənməsində operativliyin təmin edilməsinə imkan yaradacaq.



# Rəqabət Məcəlləsinin tətbiqi inhisarçılığın qarşısını alır

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Rəqabət Məcəlləsinin tətbiqi barədə növbəti maarifləndirici seminar keçirilib.**

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun fəaliyyət planının tələblərinə əsasən təşkil olunan seminarda qida, qeyri-qida, tikinti, turizm, rabitə və telekommunikasiya sahələrində fəaliyyət göstərən biznes assosiasiyaları və sahibkarlıq subyektləri, eləcə də konsaltinq şirkətlərinin nümayəndələri ştirak ediblər.

Tədbirdə Dövlət Xidmətinin təbii inhisarlara nəzarət şöbəsinin müdiri Şəmsi Rzalı "Rəqabət Məcəlləsi: Hökmran mövqe anlayışı, hökmran mövqedən sui-istifadə halları, haqsız rəqabət və iqtisadi təmərküzləşmələr" mövzusunda təqdimatla çıxış edib. Şöbə müdiri təsərrüfat subyektinin müvafiq bazarda hökmran mövqe tutmasına gətirib çıxaran müstəsna vəziyyət, rəqabətin məhdudlaşdırılmasına, o cümlədən haqsız rəqabətə səbəb olan hallar, təsərrüfat subyektlərinin bazar gücü, razılıq alınması tələb olunan təmərküzləşmələr ilə bağlı iştirakçılara ətraflı məlumat verilib.

Bundan əlavə, rəqabət orqanı tərəfindən həyata keçirilən dövlət nəzarətinin metodları, eləcə də rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri, maliyyə sanksiyalarından azadolma halları və güzəştlərlə bağlı Məcəllədə əks olunan müddəalar diqqətə çatdırılıb.

# Türkiyə ilə yükdaşıma anlaşması



**Ankara şəhərində "Beynəlxalq avtomobil daşımaları üzrə Azərbaycan–Türkiyə Qarışıq Komissiyası"nın iclası keçirilib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən verilən məlumata görə, iclasda avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların tənzimlənməsinə dair mühüm məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul olunub. Tərəflər beynəlxalq daşımaların ikitərəfli ticarətdə oynadığı mühüm rolu nəzərə alaraq sahənin inkişafı üçün birgə səylərin davam etdiriləcəyini vurğulayıblar.**

Qeyd olunub ki, Türkiyə ilə Azərbaycan arasında "İcazə" blanklarının elektron şəkildə mübadiləsinə və verilməsinə imkan verən "E-Permit" sisteminin yaradılması və inteqrasiya işləri uğurla yekunlaşıb. Layihənin uğurla həyata keçirilməsi nəticəsində ölkələrimiz arasında ikitərəfli yükdaşımalarda elektron icazənin tətbiqinə başlanılıb və ilk sınaq daşınmaları yerinə yetirilib. Elektron icazənin tətbiqi ilə dekabrın 16-da Türkiyə daşıyıcı şirkətinə məxsus ilk yük avtomobili Azərbaycana çatıb. Elektron "İcazə" blankı alan, Azərbaycandan yola düşən ilk yük avtomobilinin isə dekabrın 18-də Türkiyə ərazisinə daxil olması gözlənilir.

Tədbirdə statistik məlumatların mübadiləsi, yük və sərnişin daşımaları ətrafında müzakirələr aparılıb, iki ölkə arasında yükdaşımaların həcminin artdığı xüsusi qeyd olunub. Bununla yanaşı, iclas zamanı Türkiyə və Azərbaycan daşıyıcıları tərəfindən beynəlxalq daşımalarda istifadə olunan "İcazə"lərin sayı barədə müzakirələr aparılıb. 2025-ci il üçün fiziki "İcazə" blanklarının kvotası yükdaşımalar üzrə ikitərəfli/tranzit 65 min ədəd, tranzit 85 min ədəd, 3-cü ölkəyə/ ölkədən 15 min ədəd, Azərbaycan daşıyıcıları üçün limandan yük alma/ 3-cü ölkəyə/ ölkədən 5 min ədəd və beynəlxalq sərnişin daşımaları bərpa olunduğu təqdirdə qeyri-müntəzəm daşımalar üçün isə 200 ədəd müəyyən edilib.

Eyni zamanda, beynəlxalq yükdaşımalar üçün gələn il üzrə elektron "İcazə" blanklarının ilkin kvotası ikitərəfli 500 ədəd və tranzit 15 min ədəd müəyyən olunub. Beləliklə, avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların həyata keçirilməsi üçün "İcazə" blanklarının sayı 15 min 500 ədəd artırılaraq 2025-ci il üzrə 185 min 700 ədəd təyin edilib.

İclasda, həmçinin elektron sistemin il ərzində istifadə səviyyəsindən asılı olaraq mübadilə edilən fiziki "İcazə" blanklarının elektron icazələrlə əvəz edilə biləcəyi barədə razılığa gəlinib. Qeyd edilib ki, ehtiyac yarandığı təqdirdə istifadə səviyyəsinə uyğun olaraq fiziki və ya elektron "İcazə" blanklarının əlavə mübadiləsi aparılacaq. "İcazə" blankları növbəti il yanvarın 31-dək etibarlı olacaq. Eyni zamanda, taxoqraf kartlarının Türkiyədə çap edilməsi ilə bağlı texniki heyətlər arasında görüşlərin davam etdirilməsi və E-CMR ilə əlaqədar birgə işlərə başlanılması qərara gəlinib.

# Pambıq ixracı ölkəyə 203 milyon dollar qazandırıb

**2024-cü ilin yanvar–noyabr aylarında ölkəmiz 203 milyon 23,14 min ABŞ dolları dəyərində 126 min 150,86 ton pambıq ixrac edib. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb. Hesabata əsasən, ixracın dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 52 milyon 147,6 min ABŞ dolları və ya 34,5 faiz, həcmi isə 50 min 941,05 ton və ya 67,7 faiz artıb. Ümumilikdə, hesabat dövründə pambıq ixracı ölkənin ümumi ixracının 0,83 faizini təşkil edib.**



Cari ilin 11 ayında Azərbaycan 9 milyon 69,62 min ABŞ dolları dəyərində pambıq idxal edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1 milyon 944,84 min ABŞ dolları və ya 27,3 faiz çoxdur. Pambıq idxalı isə ölkənin ümumi idxalının 0,05 faizinə bərabər olub.

Bununla yanaşı, yanvar–noyabr aylarında Azərbaycan 113 min 980,51 ton pambıq lifi və 10 min 918,25 ton pambıq iplik ixrac edib. Ölkəmizin bu növ məhsulların ixracından əldə etdiyi ümumi gəlir isə 196 milyon 957, 44 min dollar olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# NAXÇIVAN XƏBƏRLƏRİ



## Vətəndaş qəbulu keçirilib

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhərində vətəndaşları qəbul edib.

Səlahiyyətli nümayəndə şəhər sakinlərinin, o cümlədən şəhid ailəsi üzvləri və qazilərin hər birini fərdi qaydada qəbul edib, onların müraciətlərini dinləyib. Vətəndaşların qaldırdıqları problemlərlə bağlı qanunvericiliyin tələbləri izah olunub, məsələlərin həlli nəzarətə götürülüb.

Bildirilib ki, müraciətlərin hər biri protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlər görüləcək.

## Liderlik və inkişaf platforması

Dünən Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə "Naxçıvan birinci liderlik və inkişaf platforması" çərçivəsində təlim və intelektual oyun təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli liderlik bacarığına yiyələnmək üçün səbr, dözüm və özünüinkişaf kimi amillərin əhəmiyyətindən danışıb. O bildirib ki hər kəs daim fərdi inkişafını diqqətdə saxlamalı, müasir dövrün tələbləri ilə uyğunlaşmağa çalışmalıdır.

İkinci Qarabağ müharibəsindəki parlaq qələbənin hər bir azərbaycanlının milli qürur hissini daha da yüksəltdiyini vurğulayan Fuad Nəcəfli bu zəfərin qazanılmasında önəmli rol oynamış gənclərimizin bundan sonra da qarşılarına qoyduqları məqsədə çatacaqlarına inamını ifadə edib. Səlahiyyətli nümayəndə qeyd edib ki, məqsədə çatmaq üçün səy və mübarizənin davamlılığı həlledici şərtdir.

"Naxçıvan Təlim Mərkəzi" İdarə Heyətinin sədri Tağı Tağızadə 2023–2027-ci illərdə muxtar respublikanın sosial-iqtisadi inkişafına dair dövlət proqramının icrasına dəstək vermək üçün yaradılmış bu qurumun fəaliyyətindən söz açıb. O bildirib ki, mərkəz muxtar respublikanın dövlət orqanlarında çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar yetkinliyi üçün müxtəlif mövzularda kurslar və təlimlər keçirir, peşə qabiliyyətlərinin yüksəldilməsinə çalışır.

Muxtar Respublika Teleradio Verilişləri QSC sədrinin müavini İlhamə Novruzova "Effektiv kommunikasiya və liderlik bacarıqları" mövzusunda təlim keçib, iştirakçılar interaktiv tapşırıqları icra ediblər. Sonra Azərbaycan Gənclər Fondu Naxçıvan filialının təşkilatçılığı ilə "Kim, nə, harada?" intellektual oyunu keçirilib. Fərqlənən iştirakçılara sertifikatlar, intellektual yarışının qaliblərinə isə mükafatlar təqdim olunub.

Liderlik və inkişaf platformasının təqdimatı "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Alya" kitab mağazasının dəstəyi ilə gerçəkləşib.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# İsveçrə parlamenti Qarabağ həqiqətlərini ciddi təhrif edir

**Beynəlxalq Avrasiya Mətbuat Fondu İsveçrə Parlamentinin Aşağı Palatasının dekabrın 17-də qəbul etdiyi bədnam "Dağlıq Qarabağ: Sülh Forumu" qətnaməsinə dair bəyanat yayıb. Sənəddə reallıqların təhrif olunduğu qətnamə mətnini ölkə ictimaiyyətinin ciddi narazılıqla qarşıladığı əksini tapıb.**

Açıqlamada bildirilir ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu sülhün təşviqinə yönəlmiş beynəlxalq təşkilat olaraq həmin qətnaməni regionda sülhün təşviqinə xidmət etməyən, əksinə, gərginliyi artırmaq riski yaradan addım kimi kəskin pisləyir. Qeyd edilir ki, bu qızışdırıcı və pozucu sənəd barışıq və qarşılıqlı anlaşmaya yönəlmiş səyləri zəiflədən birtərəfli mövqeni əks etdirir.

Bəyanatda göstərilir ki, 2023-cü ildə münaqişənin həlli ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmiş və Qarabağ regionu işğaldan azad olunmuşdur. Bu nəticə Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən tanınmışdır. Lakin bəzi dairələrdə regionun reallıqları ilə bağlı narahatlıq doğuran məlumat çatışmazlığı mövcuddur. Müəlliflər işğal altında olduğu dövrdə Qarabağın xarabalığa çevrildiyi faktını gözardı edirlər.

Bildirilir ki, son 30 ildə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün ağır çətinliklərə məruz qalması ilə bağlı problemlər barədə çoxları məlumatsızdır. Ermənistanın törətdiyi Xocalı, Qaradağlı, Ağdaban kimi çoxsaylı qətliamlar və soyqırımlar diqqətdən kənarda qalmışdır. Belə laqeydlik regionun tarixi haqqında təsəvvürləri təhrif edir.

Beynəlxalq Avrasiya Mətbuat Fondu sonda İsveçrəni neytrallıq və vasitəçilik ənənəsi ilə tanınan ölkə kimi bölgədəki gərginliyi artırmaq və ya yanlış anlamaları davam etdirmək əvəzinə, davamlı sülhə məqsədyönlü şəkildə töhfə verməsini təmin etməyə çağırır.

***XQ***

# İtaliyanın hərbi nümayəndə heyəti ölkəmizə səfər edib



**Azərbaycan və İtaliya Müdafiə nazirlikləri arasında imzalanan plana əsasən, İtaliya Respublikasının hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə hərbi ekspertləri ölkəmizə səfər ediblər.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində İtaliya nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqlara müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası barədə brifinq təqdim olunub. Eyni zamanda, Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi, eləcə də sonrakı əməliyyatlarda informasiya təminatı və dezinformasiya ilə mübarizə tədbirləri haqqında ətraflı məlumat verilib.

İtaliyalı hərbi ekspertlər tərəfindən hərbi-mülki əməkdaşlığa dair brifinqlər təqdim edildikdən sonra bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi məsələləri müzakirə edilib, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



# Gənclər "Yaşıl gələcəyə könül verir"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Gənclər və İdman, Elm və Təhsil, Səhiyyə nazirlikləri və Gənclər Fondunun əməkdaşlığı ilə "Yaşıl gələcəyə könül ver" mövzusunda görüş keçirilib. Öncə könüllülər tərəfindən musiqi nömrələri və süni intellekt vasitəsi ilə hazırlanmış şəkillərdən ibarət sərgi nümayiş etdirilib. Pantomima teatrının aktyorlarının ətraf mühitin qorunması ilə bağlı mesajları özündə əks etdirən tamaşası izlənilib. Könüllülərin fəaliyyətindən bəhs edən və COP29-la bağlı təəssüratlarından ibarət video çarxlar nümayiş olunub.**




Çıxışında COP29-a ölkəmizin uğurlu ev sahibliyi etməsinə diqqət çəkən AQUP-DK-nin sədri Bahar Muradova Azərbaycanın yaşıl dünya naminə həyata keçirilən fəaliyyət çərçivəsində özünəməxsus təcrübəsinin olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan Tərəflər Konfransının üzvü kimi ekoloji proseslərə öz töhfəsini verməklə yanaşı, həm də milli töhfələri vahid bir məcraya yönəltməkdə və hər kəsi əhatə edəcək fəaliyyət planlarını icra etməkdə öncüllük etməyə davam edəcək. Könüllü gənclərin COP29 fəaliyyətinə böyük həvəslə qatıldıqlarını vurğulayan sədr, onların bu prosesə töhfə verməyə çalışdıqlarını deyib.

Komitə tərəfindən artıq bir neçə ildir ki, "Ailəm könüllüləri" layihəsinin həyata keçirildiyini bildirən sədr, könüllü proqramlarının əldə etdiyi bütün nailiyyətlərin əsas tərkib hissələrindən biri olduğunu qeyd edib. Bu proqramların davamlılığının təmin olunması üçün əlaqədar qurumlarla birgə fəaliyyət birliyinin yaradılmasının əhəmiyyətini vurğulayan B.Muradova bu təşəbbüsün Azərbaycanın insan kapitalı və onun inkişafının təmin edilməsinə yönəldiyini deyib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov təbiətin mühafizəsi, flora və faunanın, eləcə də biomüxtəlifliyin qorunması, sağlam qidalanmanın təmin edilməsi, sudan qənaətlə və səmərəli istifadənin önəmini vurğulayıb. O, inkişaf etmiş ölkələrdə texnologiyanın və sənayenin yüksək inkişafının fəsadları haqqında məlumat verib. Müəllimlər üçün yaşıl gələcək, ekoloji tarazlıq mövzularını özündə əks etdirən xüsusi metodiki tədris vəsaitlərinin hazırlandığını və tədris ilinin ilk dərsinin məhz yaşıl dünya naminə həmrəylik ilinə həsr edildiyini diqqətə çatdırıb.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva COP29 konfransı çərçivəsində gənclərin aktiv fəaliyyətini, xüsusilə vurğulayaraq, onların keçirilən tədbirlərə verdiyi mühüm töhfələri qeyd edib. Bildirib ki, biz gələcəyimizi daha optimist və uğurlu görmək üçün təbiəti, suyu, ekoloji tarazlığı qorumalıyıq. İnsan fəaliyyəti daha çox elmə və biliyə əsaslanmalıdır. Səhiyyə nazirinin müavini Nadir Zeynalov iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərindən danışıb. Qeyd edib ki, iqlim dəyişikliyinin dolayı yolla su və qida ehtiyatlarının, sanitariya imkanlarının azalmasına və nəticədə müxtəlif xəstəliklərin yayılmasına səbəb olur. O, könüllü gənclərin maarifləndirmə işində və ümumi məlumatlılıq səviyyəsinin artırılmasında mühüm rol oynaya biləcəklərini vurğulayıb. Milli Məclisin deputatı, COP29 iqlim çempionu Nigar Arpadarai Azərbaycanda könüllülük fəaliyyətinin artıq ənənə halını aldığını vurğulayaraq, ildən-ilə könüllülərin təşkilatçılığa daha çox cəlb olunduğunu, kommunikasiya bacarıqları ilə daha peşəkar yanaşmalarının müşahidə edildiyini deyib. COP29-qəbul elanından sonra 16 min gəncin qeydiyyatdan keçdiyini, 3 min gəncin isə iştiraka cəlb edildiyini diqqətə çatdırıb. Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev toplantılarda könüllülərin təkcə izləyici kimi deyil, iştirakçı qismində çıxış etməsini yüksək qiymətləndirib. COP29 dövründə əvəzsiz və aktiv fəaliyyət göstərdikləri üçün könüllülərə təşəkkür edib.



Sonda könüllülərin dövlət rəsmilərinə ünvanladığı suallar cavablandırılıb. Görüşü təşkil edən qurumların könüllü təşkilatlarının ətraf mühitin mühafizəsinə dair əməkdaşlıq razılaşması səsləndirilib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# SOSİAL XƏBƏRLƏR



## 20 mininci aktiv təqdim edilib

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" üzrə 20 mininci şəxs olan şəxs Bakı şəhər sakini, şəhid ailəsi İlahə Eyvazovaya aktivlər təqdim edilib.**

Dövlət Məşğulluq Agentliyindən XQ-yə verilən xəbərə görə, İ.Eyvazova "Qadın gözəllik salonu" zərfi üzrə proqrama müraciət edib. Təlim və qiymətləndirmə mərhələsini uğurla tamamladıqdan sonra İlahə Eyvazovaya özəl iş qurması üçün lazım olan avadanlıq verilib.

2020–2025-ci illəri əhatə edən və 22 min işsiz şəxsi əhatə edəcək layihənin uğurlu icrasının nəticəsi olaraq 2025-ci ilin sonunadək bu rəqəmin 25 minə çatdırılması hədəflənir.

## Əlillərə 87,7 min bərpa vasitəsi verilib




**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar–noyabr aylarında əlilliyi olan şəxsləri 87 min 700 reabilitasiya vasitəsi ilə təmin edib.**

Bu vasitələrin 5 min 800-ü təkərli oturacaq (o cümlədən 238-i mühərrikli, təkərli oturacaq), 1 min 800-ü aşağı və yuxarı ətraf protezi, habelə 2 min 100 şəxsi eşitmə aparatı, 2 min 600-ü qoltuqaltı və dirsəkaltı ağac, 159-u korset olub. Həmin şəxslərə 3 min 100 cüt protez ayaqqabı və 5 min 900 ortopedik ayaqqabı və digər reabilitasiya vasitələri də təqdim olunub.

Bu ilin 11 ayı ərzində, ümumilikdə, 11 min 200 nəfər əlil reabilitasiya vasitələri ilə təmin edilib.

## DOST 850 min vətəndaşa xidmət göstərib

**Bu ilin yanvar–noyabr aylarında DOST mərkəzlərində 850 min vətəndaşa xidmət göstərilib.**




2019-cu ilin may ayından ölkəmizdə artıq 7 DOST mərkəzi açılıb. Həmin qurumlarda "bir pəncərə"dən 160 sosial xidmət müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir.

DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,4 faiz edir.

*Z.HÜSEYNOVA*
*XQ*

İlin yubileyləri: Mirzə Şəfi Vazeh – 230

# "İldırımlarla göyün zülmətini parçalayır"

**Böyük şair, tanınmış maarifçi və pedaqoq Mirzə Şəfi Vazeh ədəbiyyat tariximizdə qəzəl, müxəmməs, məsnəvi və rübailəri ilə iz qoymuş söz sənətkarlarındandır. Gəncə və Tiflisdə yaşayıb-yaradıb, müəllimlik edib.**

Mirzə Şəfidən söz düşəndə onun şeirlərini aparıb Almaniyada çap etdirmiş tələbəsi Fridrix Bodenştedtin şairin tanınmasında xidməti və təəssüf ki, onun irsinə xəyanəti yada düşür. Belə ki, şairin şeirlərinin Avropada şöhrət qazandığını görən Bodenştedt 1875-ci ildə özünü bu şeirlərin müəllifi kimi qələmə verib və nəticədə, Mirzə Şəfinin adı uzun müddət unudulub. Amma haqq nazilsə də, üzülməyib. Elmi, ədəbi araşdırmalarla sübut edilib ki, bu şeirlər, həqiqətən, Mirzə Şəfiyə məxsusdur, nankor tələbəsi isə sadəcə bu əsərləri alman dilinə tərcümə edərək Qərbi Avropada yayıb.

Həyat və yaradıcılığında ləyaqəti hər şeydən üstün tutan şair bu barədə fikirlərini poetik dillə qələmə alıb:

**Qoy, sən həqiqəti söyləyən zaman,**
**Qopsun min təhlükə, qopsun min tufan.**
**Gəl baxma bunlara, ey Mirzə Şəfi,**
**Uca tut daima arı, şərəfi!**

Əsərləri XIX əsrin ortalarında, 40 il ərzində nə az, nə çox, düz 145 dəfə çap olunmuş, bu dövr ərzində Avropanın əsas, aparıcı dillərinə çevrilmiş, dünya şöhrəti qazanmış şairin danılması heç bir məntiqə sığmır. Üstəlik, dövrünün böyük musiqiçisi, rus pianoçusu və bəstəkarı Anton Rubinşteyn Mirzə Şəfidən seçdiyi 12 şeir əsasında silsilə romanslar bəstələmişdi ki, bu iş 1855-ci ildə böyük Avstriya-macar bəstəkarı Ferens List tərəfindən təqdir edilərək nəşr olunub.

Təxəllüsünün mənası "ifadəli, aydın" olan Mirzə Şəfi Vazehin yaradıcılığının çox az bir hissəsi qalır. Bu şeirləri ilk olaraq Salman Mumtaz üzə çıxarıb və 1926-cı ildə "Mirzə Şəfi Vazeh" adı ilə nəşr etdirib. Bir müddət sonra Gürcüstan Elmlər Akademiyası yanında Əlyazmalar İnstitutunda Mirzə Şəfi Vazehin öz xətti ilə yazdığı 2 qəzəli və "Məktubun intizarında" poeması tapılıb.

Alimlər onun haqqında çox yazıblar. Rəsul Rza, Xəlil Rza, Balaş Azəroğlunun fraqmentar, Aslan Aslanovun isə sistemli tərcümələri Mirzə Şəfi Vazehi, bütövlükdə, mədəniyyətimizə qazandırıb, onu böyük



Azərbaycan şairi kimi təsdiqləyib, sanki "işğal olunmağa" cəhd edilən ədəbi irsinin sahibi edib.

Onun şeirlərində ulu sələfi Ömər Xəyyamın ruhunu yaşadan misralar da var:

**Hicran qəminin badeyi-gülgündür ələcı**
**Vazeh, danışırlar bunu meyxanələr içrə.**

Mirzə Şəfinin yaşının iki əsr–bir qərinəyə çatmasına az qalır. Amma şöhrəti saralıb-solmaq bilmir. Şərqşünas Adolf Berje ilk dəfə "60 yaşlı təvazökar türk"lə Tiflis küçələrində rastlaşıb, "Alman Şərq Cəmiyyəti"nin jurnalında şairin həyatı barədə geniş məlumatları qələmə alıb. Gəncədə onun şagirdi olmuş Mirzə Fətəli Axundzadə də ustadını ehtiramla yad edib. Xatirələrində göstərib ki, məhz Mirzə Şəfi ona ruhani olmağa imkan verməyib və baxışlarının formalaşmasında böyük rol oynayıb.

Özü demişkən, "qəlbinin, ruhunun qanadlarında zülmət gecədən aydınlığa çıxan" Mirzə Şəfinin lirikası çox güclü olub. "Məhəbbət təranələri" şeirində o, yazıb:

**Bu kiçik məhəbbət təranələrim,**
**Yaranmış ətrindən tər nanələrin.**
**Əks-sədasıdır bu səslər, ey dost,**
**Eşqin, səadətin və nalələrin…**

Şair sevgilisinin yolunda hər əzaba hazır olduğunu belə qələmə alıb:

**Gəlmişəm vəslinin ümidi ilə,**
**Çıxmışam yollara, nə ola-ola.**
**Gözümə durmayıb yarın yolunda**
**Nə çətin əzablar, nə xəta-bəla.**

Bəli, klassikamızın Mirzə Şəfi zirvəsi daim öz ucalığında qalmaqda və diqqət çəkməkdədir. Gəncədə heykəli ucaldılıb, məktəblərdən biri onun adını daşıyır. Tiflisdə qəbirüstü abidəsi, Bakının İçərişəhərində adına olan küçə var. 2010-cu ildə günahının "yuyulmasına" çalışılan Bodenştedtin doğma şəhəri Paynedə Azərbaycan heykəltəraşları Teymur və Mahmud Rüstəmov qardaşları tərəfindən Mirzə Şəfi və onun şagirdi Fridrix Bodenştedtə həsr olunmuş xatirə lövhəsi qoyulub. 10 il əvvəl Almaniyadan Gəncəyə Vazehin əsərləri gətirilib və onların almancadan ana dilinə tərcüməsi işlərinə başlanılıb. 5 il öncə isə Berlinin Humboldt Universitetində unudulmaz şairinin "Xalq Əmanəti" layihəsi çərçivəsində Azərbaycan, rus və alman dillərində işıq üzü görən "Bütün əsərləri" təqdim olunub.

Bu günlərdə Bakıda, şairin adını daşıyan kitabxanada 230 illik yubileyi keçirilib. Natiqlər Mirzə Şəfi Vazeh yaradıcılığını hərtərəfli müzakirə edib, üstün keyfiyyətlərini göstərib və Azərbaycanın Avropa ilə ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus yer tutduğunu diqqətə çatdırıblar.

Onu da deyək ki, bir müddət öncə "Ədəbiyyat və incəsənət" portalında Mirzə Şəfinin indiyədək çap olunmamış 65 şeiri ilk dəfə Azad Yaşarın təqdimatında dərc edilib. Həmin nümunələrdən bir bəndi burada yada salmaq istəyirik:

**Hakim kəsildikcə öz hisslərimə**
**Zövqlə yaşayıram ömrün hər dəmin.**
**Durur xidmətimdə, itaətimdə**
**Pərilər, çiçəklər, ruhlar aləmi.**

Doğrudan da, elədir. Düz 172 il əvvəl, 58 yaşında dünyadan köçsə də, qəzəllərinin birindən götürüb bu yazıya başlıq seçdiyimiz misrasında deyildiyi kimi, Mirzə Şəfinin gah Günəş kimi işıq saçan, gah da ildırım kimi çaxan əsərləri onu yaşadır və yaşadacaq.

*Ə.DOSTƏLİ*
*XQ*

İlk dəfə XQ-də

# Şəkillərdə qalmış Füzuli türbəsi

**Bu yaxınlarda internet səhifələrində "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanın böyük Füzuliyə həsr olunmuş "Bən türkzəbandan iltifat eyləmə kəm" adlı gözəl bir məqaləsini oxudum. Yazı, həqiqətən də, öz elmiliyi və informasiya bolluğu ilə diqqətimi çəkdi.**

Məqalədə digər elmi məlumatlar və faktlarla yanaşı, Füzulinin məqbərəsi ilə bağlı verilən məlumatlar da olduqca maraqlı idi. Belə ki, Azər Turan görkəmli türk alimləri Nihad Sami Banarlı, Mehmet Fuad Köprülü və Əbdülqadir Qaraxana, əsasən, Füzulinin vaxtilə Kərbəlada, İmam Hüseyn məqbərəsinin yanında mövcud olmuş məqbərəsindən də bəhs etmişdir.





Həmin sətirləri oxuyanda sonralar sökülmüş bu məqbərənin məndə 2 şəklinin olduğu yadıma düşdü. Belə ki, mənim dayım – əvvəl Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin müəllimi, sonra ilahiyyat fakültəsində dillər kafedrasının müdiri olmuş filologiya üzrə fəlsəfə doktorü, dosent Malik Qarayev (1939–2008) 1970-ci illərin əvvəllərində İraqda tərcüməçi işləyərkən Füzuli məqbərəsinin şəkillərini çəkmişdir.

Fotoların birində məqbərənin önündə Malik müəllimin ailə üzvləri və səfirliyin azərbaycanlı əməkdaşları, digərində isə, onun xatirələrinə görə, məqbərənin baxıcısı təsvir olunmuşdur. Məqbərə bir qədər sonra sökülmüşdür. Füzulinin 530 illik yubileyi keçirilən vaxt, "Xalq qəzeti"nə təqdim etdiyim bu nadir şəkillər füzulişünaslıq gərəkli mənbədir.

*Tərlan QULİYEV,*
*filologiya elmləri doktoru, professor*

# Mədəniyyət xadimlərimiz Romada

**Romada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ölkəmizin İtaliyadakı səfirliyinin və Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə milli mədəniyyət elçiləri toplantısı keçirilib.**

Səfir Rəşad Aslanov səfirliyin nəzdindəki Mədəniyyət Mərkəzinin fəaliyyətindən bəhs edib.

Mədəniyyət naziri Adil Kərimli Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində keçirilən tədbirin milli mədəniyyətimizin təbliğinə töhfə olduğunu bildirib. Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Azərbaycan diasporunun fəaliyyətdən, xaricdəki soydaşlarımızın mədəniyyətimizi daha yaxından tanıtmaq səylərindən danışıblar.

Xalq yazıçısı Çingiz Abdullayev, tanınmış sənət adamları – Cahangir Novruzov, Firəngiz Əlizadə, Əsmər Nərimanbəyova, Yalçın Adıgözəlov, Cəmilə Cavadova-Spitsberq və Fəxrəddin Manafov görüşün əhəmiyyətini vurğulayıblar.



Mədəniyyət elçilərimiz "Villa Borghese" parkında dahi Nizami Gəncəvinin abidəsini də ziyarət edib, önünə gül dəstələri düzüblər.

*XQ*

Kamil Rüstəmbəyov – 100

# Görkəmli rejissorun xatirə gecəsi

**Dövlət Film Fondu və Azərbaycan Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə görkəmli kinorejissor Kamil Rüstəmbəyovun anadan olmasının 100 illiyi münasibətilə xatirə gecəsi keçirilib.**



Onun adı gələndə, ilk növbədə, quruluş verdiyi və milli kino sənayemizdə trendə çevrilmiş "Dağlarda döyüş", "Axırıncı aşırım", "Dərviş Parisi partladır" (Şamil Mahmudbəyovla birgə), "Gözlə məni" bədii filmləri yada düşür. Sevə-sevə baxdığımız bütün bu filmlər sovet dövründə ümumittifaq ekranında da göstərilərək böyük maraq doğurub. Onu da xatırlayırıq ki, "Axırıncı aşırım" kinoromanı 1972-ci ildə Tbilisidə keçirilən V kinofestivalda nümayiş etdirilib, aktyorlardan Adil İsgəndərov Kərbəlayi İsmayıl, Həsən Məmmədov isə Abbasqulu bəy rollarını ifa etdikləri üçün ən yaxşı kişi rollarının ifasına görə mükafata layiq görülüblər. Milli televiziyamızın ilk günündən orada çalışmış Kamil Rüstəmbəyov 1960-cı ildə bir ilk olaraq, şair Səməd Vurğunun "Aygün" poemasının motivləri əsasında eyni adlı tammetrajlı bədii filmin ssenarisini yazıb və quruluşunu verib.

Film Fondunda keçirilən yubiley gecəsi çərçivəsində sənətkarın həyat və yaradıcılığını özündə əks etdirən fotosərgi açılıb. Tədbirdə Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev mərhum yubilyarın şəxsiyyəti, yaradıcılığı haqqında məşhur kino və televiziya xadimlərinin vaxtilə səsləndirdikləri fikirləri bir daha iştirakçıların diqqətinə çatdırıb. Qeyd edilib ki, bir neçə gün öncə Dövlət Film Fondu, Kinematoqrafçılar İttifaqı, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası və Kinorejissorlar Gildiyasının nümayəndələri, tanınmış mədəniyyət xadimləri sənətkarın məzarını ziyarət ediblər.

Sonra Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayev, Xalq artistləri Əbdül Mahmudov, Ramiz Həsənoğlu, Əməkdar incəsənət xadimləri Ayaz Salayev, Oqtay Babazadə və Əməkdar artist Əliqulu Səmədov tanınmış rejissor haqqında xatirə və düşüncələrini bölüşüblər.



Yubiley gecəsində unudulmaz sənətkarın həyat və yaradıcılığını əks etdirən videoçarx və rejissorun çəkdiyi filmlərdən fraqmentlər nümayiş olunub.

*XQ*

# "Dünyanı dərk edilən gözəllik xilas edəcək"

## *Rəssam və ictimai xadim Nikolay Rerixin Bakı sərgisi onun bu sənət kredosunu əks etdirir*



**Bakıdakı "Rus Evi"ndə Rerixlər ailəsi üzvlərinin yubileylərinə həsr olunmuş "Gözəlliyin elçiləri" sərgisi açılıb.**

Sərgi Rerixlər irsinin təbliği üzrə təşəbbüs qrupu tərəfindən təşkil olunub. Təşəbbüs qrupunun Bakı təmsilçisi Lalə Sultanova "Xalq qəzeti"nə açıqlamasında bildirdi ki, 2024-cü il bu məşhur ailənin 3 üzvünün yubiley ilidir: "Beynəlxalq və mədəni ictimaiyyət bu il dahi rus rəssamı, mütəfəkkiri, ictimai xadim, "Rerix Pakti"nın müəllifi Nikolay Rerixin anadan olmasının 150, onun ömür-gün yoldaşı, filosof, yazıçı, tərcüməçi Yelena İvanovnanın 145 və onların kiçik oğlu, rəsmləri dünyanın məşhur muzeylərini bəzəyən dünya şöhrətli rəssam, alim, müəllim və ictimai xadim Svyatoslav Rerixin 120 illik yubileyini qeyd edir".

"Rerix Paktı"nın əhəmiyyətindən danışan L.Sultanovanın sözlərinə görə, bu pakt silahlı münaqişələr zamanı, eləcə də sülh dövründə mədəni irsin qorunmasına dair ilk beynəlxalq müqavilə, milli dəyərlərin mühafizəsi sahəsində beynəlxalq hüquqda təsbitini tapmış bir sənəddir. Dünyanın 50-dən çox ölkəsi həmin Pakta qoşulub.

2025-ci il yanvarın 10-dək davam edəcək "Gözəlliyin elçiləri" sərgisində paytaxt sakinləri Rerixlərin bəşəriyyətin xilasının yalnız gözəllik və xeyirxahlığa bağlı olduğunu təbliğ edən, bu ideyanın mənəvi-təsviri mirası sayılan tablolardan zövq almaqla yanaşı, məşhur ailənin Hindistanda keçən həyatının maraqlı mərhələsi ilə bağlı epizodlarla tanış olmaq imkanı əldə edəcəklər.

*İ.HƏSƏNQALA*
*XQ*

Günün sualı

# Avropa Gürcüstana təzyiqləri azaldacaqmı?

*Rəsmi Tbilisi Avrointeqrasiya yolundan imtina etmək niyyətində olmadığını bildirir*

**Gürcüstan hakimiyyəti Avropa İttifaqına inteqrasiya yolundan dönmədiyini dəfələrlə bəyan etsə də, ölkədə noyabrın 28-dən bəri baş qaldırmış etiraz dalğası sakitləşmək bilmir. Əlbəttə, bu məsələdə Qərb dairələrinin dəstəyi də mühüm rol oynayır. Bütün Avropa, eləcə də ABŞ rəsmiləri gürcü müxalifətinin etirazlarını birmənalı şəkildə dəstəkləyir və demək olar ki, hər gün bu istiqamətdə yeni-yeni bəyanatlar səsləndirirlər. Bu qüvvələr Gürcüstanın Rusiyaya tərəf meyillənməsini bəhanə gətirir, Baş nazir İrakli Kobaxidzenin ölkənin Avrointeqrasiyadan imtina edilmədiyi barədəki bəyanatlarını isə qulaqardına vururlar.**



Dünən ABŞ Dövlət Departamenti sözçüsünün müavini Vedant Patel yeni bəyanatla çıxış edərək bildirib ki, ölkəsinin "Gürcüstanda demokratiyanı sarsıdanlara qarşı sanksiyaları, ilk növbədə, Gürcüstanın Avro-Atlantik istəklərinə dəstək nümayiş etdirmək məqsədi daşıyır". Hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyası isə bunlara müvəqqəti problemlər kimi baxır. Hökumət Bayden administrasiyasının "seçkiləri uduzduğunu və mandatının başa çatmaq üzrə olduğunu" bildirir, yanvarın 20-də ABŞ-ın yeni prezidenti Donald Trampın andiçmə mərasimindən sonra Tbilisi ilə Vaşinqton arasında münasibətlərin "yenidən normallaşacağını" gözləyir.

Patel isə başqa hava çalır: "Dörd-beş həftə uzun müddətdir. Dörd və ya beş həftə ərzində çox şey baş verə bilər. Bu idarənin hələ çox vaxtı var. Və nəhayət, məsələ ondadır ki, biz gürcü xalqı və onun Avro-Atlantik istəkləri ilə həmrəyik". Amma belə görünür ki, "gürcü xalqının Avro-Atlantik istəkləri" ilə həmrəy olanlar Gürcüstan hakimiyyətinin Avro-Atlantik istəkləri ilə heç cür həmrəy olmaq istəmirlər.

Ona görə də Patel Bayden administrasiyasının Tbilisiyə qarşı yeni sanksiyalar hazırladığını deyib: "Dövlət katibi Blinkenin daha əvvəl dediyi kimi, biz Gürcüstanda demokratiyaya xələl gətirdiyinə inandığımız şəxsləri məsuliyyətə cəlb etmək üçün əlavə tədbirlər, o cümlədən sanksiyalar hazırlayırıq".

Xatırladaq ki, dekabrın 12-də ABŞ Gürcüstan hökumətinin və parlamentinin 20-yə yaxın üzvünə, hüquq-mühafizə və təhlükəsizlik orqanlarının əməkdaşlarına və fiziki şəxslərə qarşı viza sanksiyaları tətbiq edib. Məhdudiyyətlər Vaşinqtonun "Gürcü arzusu"nun Aİ-yə üzvlüklə bağlı danışıqları dayandırmaq barədə qərarına və Tbilisidə müxalifətin etirazlarının yatırılmasına cavab olaraq tətbiq edilib. Bundan əvvəl isə ABŞ Gürcüstanla strateji tərəfdaşlığı dayandırdığını açıqlamışdı.

Əlbəttə, Qərbin Gürcüstana qarşı təzyiqləri qonşu ölkələrdə narahatlıqla izlənməkdədir. Azərbaycan baş verənlərdən ciddi narahatdır və Cənubi Qafqazın lider ölkəsi kimi, regionda sabitliyin pozulmasını yolverilməz sayır. Uzun müddətdən bəri səssizliyini qoruyan Rusiya da artıq Tbilisi ilə bağlı proseslərə reaksiya verməyə başlayıb. Dünən Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Rossiya-24" telekanalının efirində bildirib ki, Avropanın Gürcüstanın daxili işlərinə qarışmasını təəccüblə izləyirlər. Bununla yanaşı, o əlavə edib ki, Moskva bu ölkədəki hadisələrə qarışmaq niyyətində deyil: "Biz Gürcüstandakı hadisələrə heç bir şəkildə müdaxilə etməmişik, qarışmırıq və heç bir şəkildə müdaxilə etmək niyyətimiz də yoxdur. Ona görə də burada təəccüblə müşahidə etdiyimiz yeganə amil avropalıların Gürcüstanın işlərinə açıq-aşkar müdaxiləsi və Gürcüstan hakimiyyətinə tamamilə həyasız təzyiq cəhdləridir".

Onun sözlərinə görə, Rusiya sonuncu seçkilərdən sonra Gürcüstan rəhbərliyi ilə münasibət qurmur: "Gürcüstan hakimiyyətinə məsləhət vermək bizim işimiz deyil, biz bunu etməyəcəyik".

Bugünlərdə Tbilisidə olan Avropa Şurasının baş katibi Alen Bersetlə söhbətində Baş nazir Kobaxidze bir daha narahatlığını bildirərək deyib ki, ölkə Avrointeqrasiyadan imtina etmədiyini dönə-dönə təkrarlasa da, etiraz dalğası səngimir. Şübhəsiz ki, baş nazir etirazları dəstəkləyənlərə mesajını ünvanlayır, dayanmaq vaxtı olduğunu bildirir.

Elə gürcü siyasi xadimləri də qeyd edirlər ki, əgər Avropa Şurasının baş katibi Gürcüstana səfərə gəlirsə, ölkənin baş naziri, parlamentinin rəhbəri, eləcə də hakim partiyanın fəxri sədri Bidzina İvanişvili ilə görüşlər keçirirsə, deməli, Gürcüstan hakimiyyətinin legitimliyi təsdiqlənmiş olur. "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasından deputat David Matikaşvili bildirib ki, Alen Bersetin Gürcüstana səfəri ölkə hakimiyyətinin legitimliyi məsələsinin gündəmdə olmadığının bir daha sübut edir: "Avropa Şurası baş katibinin Gürcüstana səfəri hökumətin legitimliyi ilə bağlı müzakirələrin sağlam düşüncə hüdudlarından kənara çıxdığının sübutudur".

Matikaşvili bu səfərdən sonra müxalifətin dalana dirənəcəyini, "milli Maydan"ın baş tutmadığını bir daha xatırladıb. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili isə səfərlə bağlı deyib: "Hesab edirəm ki, baş katibin Gürcüstana gəlməsi çox yaxşı fürsət, yaxşı siyasi jest idi. Bizim bir-birimizi dinləmək imkanımız oldu və hər şeydən əvvəl o, hakimiyyət nümayəndələrini və onların mövqelərini dinlədi".

Etiraz aksiyaları isə davam etməkdədir. Ümid etmək olar ki, AŞ baş katibinin səfərindən sonra Gürcüstana sakitlik qayıda bilər.

***P.ƏMİRCANOV***
***XQ***

# Makron gülüş obyektinə çevrilib

*Fransa prezidenti Qafqazda sülh prosesinə mane olmaq üçün hər oyundan çıxır*

**Əgər Fransa prezidenti Emmanuel Makronun Ukraynadan tutmuş İrana kimi, eləcə də digər məsələlərdə apardığı siyasət obyektiv qiymətləndirilərsə, Fransanın riyakar siyasətini və Makron hökumətinin gülüş obyektinə çevrilməsini görmək mümkündür.**

Bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, tanınmış siyasətçi və politoloq Ayub Kara ABŞ və beynəlxalq yəhudi diasporunun populyar nəşri "Jewish News Syndicate"də dərc olunmuş "Riyakar mövqe Emmanuel Makronu gülüş obyektinə çevirir" başlıqlı məqaləsində yazıb. Qeyd olunub ki, fransızlar üçün insan haqları öz imperiya maraqlarını genişləndirmək məqsədi daşıyan döyüş fəryadından başqa bir şey deyil. "Bloomberg"in son hesabatına görə, Fransa 2024-cü ildə Rusiyadan rekord miqdarda təbii qaz idxal edib. Bu, o deməkdir ki, Makron Paris görüşündə Zelenski və Trampın yanında dayansa da, nəzəri cəhətdən Ukraynanı və Rusiyaya qarşı sanksiyaları dəstəkləsə də, əməldə bunlara riayət etmir. Axı Rusiya qazı Fransa bazarlarından bütün dünyaya satıla bilər və bu, Makronun Rusiya əleyhinə çıxışını kifayət qədər mənasız edir. Fransa bazarındakı reallıq Makronu gülüş obyektinə çevirir.




O, diqqətə çatdırıb ki, Fransanın riyakar mövqeyinin başqa bir nümunəsi rəsmi Parisin Tehranla sıx əlaqələridir. Ermənistanın vasitəçiliyi ilə Fransa və İran arasında geniş əməkdaşlıq mövcuddur. Hətta Ermənistanın baş naziri Nikol Paşinyanla Makron arasında keçirilən görüşdə Fransa lideri erməni həmkarına İrana mesajların çatdırılması ilə bağlı müasir üstüörtülü təlimatlar verib. Sabiq nazir Avropa İttifaqının İrana qarşı daha çox sanksiyalar tətbiq etdiyi halda, Makronun Ermənistan vasitəsilə İranla gizli danışıqlar aparmasını riyakarlıq adlandırıb.

Məqalədə, eyni zamanda, bildirilib ki, Fransanın İran və Ukraynaya qarşı yürütdüyü siyasət riyakarlığın yeganə nümunəsi deyil. Belə ki, 2020-ci ildə Azərbaycan və Ermənistan arasında Qarabağ münaqişəsinin başlanğıcından Fransa özünün ATƏT-in Minsk qrupundakı bitərəf vasitəçi roluna zidd, qərəzli mövqe nümayiş etdirib. Minsk qrupu ilə əməkdaşlıq çərçivəsində Qarabağ münaqişəsinin həllinə mane olmaq üçün səylərini əsirgəməyib.

İsrailli siyasətçi yazısında Fransanın Korsika ilə yanaşı, öz sərhədlərindən minlərlə kilometr uzaqlıqda yerləşən digər dənizaşırı ərazilərə qarşı da müstəmləkəçilik siyasəti apardığını vurğulayıb: "Fransızlar üçün insan haqları onların imperiya maraqlarına xidmət edən vasitədir. Beləliklə, Azərbaycanın Qarabağa haqqı yoxdur, amma fransızların başqa ölkələri müstəmləkə etmək, imperiya təsir dairəsini genişləndirmək hüququ var. Bu riyakar mövqe Makronu gülüş obyektinə çevirən daha bir misaldır".

***Ə.PAŞA***
***XQ***

# "Naxçıvan – qədim diyar"

**Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı Bakıdakı 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində "Naxçıvan – qədim diyar" adlı mərasim keçirilib.**



Mərkəzin direktor müavini Kəmalə Əncümənur iştirakçıları salamlayıb. Mərkəzin dərnək rəhbəri Aişə Abdullayeva qədim diyarla bağlı "Naxçıvan – dünyanın möcüzə və sirlərlə zəngin qədim naxışı" adlı təqdimat edib.

Mərasimdə AMEA Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, fəlsəfə doktoru Cəbi Bəhramov, AMEA Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Lütfiyyə Əsgərzadə, "Milli Mədəniyyətin Təbliği" İctimai Birliyinin rəhbəri, fəlsəfə doktoru Jalə Cəfərova, AMEA-nın Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq plyus" Yaradıcılıq Birliyinin əməkdaşı, şair-pedaqoq İbrahim Yusifoğlu və başqaları çıxış ediblər.

Naxçıvan Muxtar Respublikasının yaradılması, qədim irsi və tarixi abidələri haqqında dəyərli fikirlər səsləndirilib. Uşaq və gənclərin ifasında Naxçıvana həsr olunmuş şeir və mahnılar səsləndirilib.

Qeyd edək ki, tədbir Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncama uyğun olaraq, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi tərəfindən elan olunmuş "Məktəblərdə Naxçıvan ayı" layihəsi çərçivəsində həyata keçirilib.



***Fidan SALMANOVA***
***XQ***

# "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsin 2023-cü il dekabrın 31-nə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatı

manatla

| AKTİVLƏR | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Əmlak, tikili və avadanlıqlar | 33,547,087 | 2,429,278 |
| Qeyri-maddi aktivlər | 359,160 | 58,539 |
| Aktivdən istifadə hüququ | 1,498,459 | 917,297 |
| Əmlak, tikili və layihələndirmə üçün verilmiş avanslar | 2,837,160 | 105,000 |
| Cəmi uzunmüddətli aktivlər | 38,241,866 | 3,510,114 |
| Cari aktivlər | | |
| Bərpa və tikinti üzrə görülmüş işlər | 11,195,084 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 137,008,955 | 3,013,347 |
| Bərpa və tikinti üzrə verilmiş avanslar | 46,354,138 | - |
| Verilmiş avanslar | 54,821 | 12,115 |
| Digər aktivlər | 22,412 | 14,659 |
| Cəmi cari aktivlər | 194,635,410 | 3,040,121 |
| Cəmi aktivlər | 232,877,276 | 6,550,235 |
| Öhdəliklər və kapital | | |
| Öhdəliklər | | |
| Uzunmüddətli öhdəliklər | | |
| İcarə öhdəliyi | 1,194,287 | 777,648 |
| Cəmi uzunmüddətli öhdəliklər | 1,194,287 | 777,648 |
| Cari öhdəliklər | | |
| Digər öhdəliklər | 1,385,185 | 8,953 |
| Bərpa və tikinti üzrə hesablaşmalar | 57,549,222 | - |
| Təxirə salınmış gəlir | 3,048,534 | 997,925 |
| Gələcək dövrün gəlirləri | 2,977,877 | 15,546 |
| İcarə öhdəliyi | 362,681 | 150,163 |
| Mənfəət vergisi öhdəliyi | 79,084 | - |
| Cəmi cari öhdəliklər | 65,402,583 | 1,172,587 |
| Cəmi öhdəliklər | 66,596,870 | 1,950,235 |
| Kapital | | |
| Nizamnamə kapitalı | 1,000,000 | 1,000,000 |
| Dövlət investisiyaları | 166,050,778 | 3,600,000 |
| Yığılmış zərər | (770,372) | - |
| Cəmi kapital | 166,280,406 | 4,600,000 |
| Cəmi Öhdəliklər və Kapital | 232,877,276 | 6,550,235 |

MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il yenidən balanslaşmış |
|---|---|---|
| Gəlirlər | 6,156,612 | 486,529 |
| Ümumi mənfəət | 6,156,612 | 486,529 |
| Ümumi və inzibati xərclər | (7,489,586) | (481,410) |
| Digər gəlirlər | 470,702 | - |
| Əməliyyat (zərəri) / mənfəəti | (862,272) | 5,119 |
| Maliyyə xərcləri | (122,965) | (5,119) |
| Faiz gəlirləri | 395,421 | - |
| Pul vəsaitləri üzrə gözlənilən kredit zərəri, xərci | (85,162) | - |
| Xarici valyutanın yenidən qiymətləndirilməsi üzrə zərər | (16,310) | - |
| Vergidən əvvəlki zərər | (691,288) | - |
| Mənfəət vergisi | (79,084) | - |
| İl üzrə zərər | (770,372) | - |

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Dövlət investisiyaları | Yığılmış zərər yenidən hesablanmış* | Cəmi kapital |
|---|---|---|---|---|
| 21 iyul 2022-ci il (fəaliyyətə başlama tarixi) | - | - | - | - |
| Nizamnamə kapitalı | 1,000,000 | - | - | 1,000,000 |
| Digər kapital | - | 3,600,000 | | 3,600,000 |
| 31 dekabr 2022-ci il | 1,000,000 | 3,600,000 | - | 4,600,000 |
| Digər kapital | - | 162,450,778 | - | 162,450,778 |
| İl üzrə zərər | - | - | (770,372) | (770,372) |
| 31 dekabr 2023-cü il | 1,000,000 | 166,050,778 | (770,372) | 166,280,406 |

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | |
| Vergidən əvvəlki zərər | (691,288) | - |
| Qeyri-pul maddələri üzrə düzəlişlər: | | |
| Aktivdən istifadə hüququ üzrə köhnəlmə xərci | 290,390 | 25,078 |
| Əsas vəsaitlərin köhnəlmə xərcləri | 227,671 | 22,593 |
| Maliyyə xərci | 122,965 | 5,119 |
| Pul vəsaitləri üzrə gözlənilən kredit zərəri, xərci | 85,162 | - |
| Qeyri-maddi aktivlərin amortizasiyası xərcləri | 17,725 | 992 |
| Məzənnə xərci | 16,310 | - |
| Əmlak, tikili və avadanlığın silinməsi üzrə zərər | 2,915 | - |
| Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yönəldilən pul vəsaitləri | 71,527 | 53,782 |
| Dövriyyə kapitalında dəyişikliklər | | |
| Bərpa və tikinti üzrə verilmiş avanslar | (46,354,138) | - |
| Bərpa və tikinti üzrə görülmüş işlər | (11,195,084) | - |
| Verilmiş avanslar | (42,706) | (12,115) |
| Digər aktivlər | (7,753) | (14,659) |
| Gələcək dövrün gəlirləri | 2,962,331 | 15,546 |
| Digər öhdəliklər | 1,376,232 | 8,953 |
| Faizdən əvvəl əməliyyat fəaliyyətindən (yönəldilən)/daxil olan xalis pul vəsaitləri | (53,189,591) | 51,507 |
| Ödənmiş faizlər | (122,965) | (5,119) |
| Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | (53,312,556) | 46,388 |
| İnvestisiya fəaliyyətindən pul vəsaitləri | | |
| Əmlak, tikili və avadanlıqların alınması | (31,348,072) | (2,451,871) |
| Qeyri-maddi aktivlərin alınması | (318,346) | (59,531) |
| Əmlak, tikili və layihələndirmə üçün verilmiş avanslar | (2,732,160) | (105,000) |
| İnvestisiya fəaliyyətindən yönəldilən xalis pul vəsaitləri | (34,398,578) | (2,616,402) |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitləri | | |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənişi | (242,395) | (14,564) |
| Dövlət büdcəsindən daxilolmalar | 220,000,000 | 3,600,000 |
| Təxirə salınmış gəlirlər | 2,050,609 | 997,925 |
| Nizamnamə kapitalının artırılması | - | 1,000,000 |
| Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri | 221,808,214 | 5,583,361 |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (16,310) | - |
| Pul və pul vəsaitlərində xalis artım | 134,080,770 | 3,013,347 |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə | 3,013,347 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna | 137,094,117 | 3,013,347 |

**2023-cü il dekabrın 31-nə başa çatan il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı**

**Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 1-ci səhifəsi) göstərilmiş rəydə olan vəzifələr haqqında müddəalarla birgə oxunmalı, "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsin (bundan sonra "qrup") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.**

**Rəhbərlik, qrupun 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.**

**Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:**

**müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;**

**məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;**

**hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması; və**

**əgər yaxın gələcəkdə qrupun normal şərtlərlə fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətinin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.**

**Rəhbərlik, həmçinin:**

**qrupun daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;**

**qrupun maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;**

**mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;**

**mümkün imkanlardan istifadə edərək qrupun aktivlərinin qorunmasının təmin edilməsi; və**

**saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.**

**2023-cü il dekabrın 31-də başa çatmış il üzrə maliyyə hesabatları qrupun rəhbərliyi tərəfindən 2024-cü il sentyabrın 2-də təsdiq edilmişdir.**

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 281 (30685) 20 dekabr 2024-cü il, cümə



# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.

6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.

3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!

*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Yağıntılı və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 20-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir.**



Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensivləşəcəyi ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 3-6°, gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunundan 765 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin bəzi şərq rayonlarda arabir yağıntılı olacağ gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 9-13° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# NASA qurğuları Mars üzərində uçur

**NASA-nın “Ingenuity” qurğusu 3 il Mars üzərində uçub. Beləliklə, alimlər Marsda uçuşların mümkünlüyünü sübut ediblər.**

Lakin “Ingenuity”nin bu ilin yanvarında uğursuz enişdən sonra qanadları zədələnib. O, bir daha uça bilməyəcək. Hazırda NASA daha böyük və daha güclü uçuş aparatı üzərində işləyir. “Mars Chopper” adlı qurğu Marsın tədqiqini tamamilə yeni səviyyəyə qaldıracaq.



NASA alimləri bildirirlər ki, uçan qurğu “Ingenuity”dən daha çox elmi cihazlarla təchiz olunacaq. Bu, “Qırmızı planet”in həm atmosferini, həm də səthini daha yaxşı öyrənməyə imkan verəcək, yerdən idarə olunmadan avtonom şəkildə enə biləcək.

Yeni qurğu Marsın səthinin yüksək keyfiyyətli şəkillərini çəkə biləcək ki, bu da planetin geoloji xüsusiyyətlərini daha yaxşı başa düşməyə kömək edəcək. Marsaxodlardan fərqli olaraq, o, Marsın səthinin müxtəlif sahələrini daha tez tədqiq edə və mürəkkəb tədqiqatlar apara biləcək. “Mars Chopper” gələcəkdə marsaxodlar üçün bələdçi rolunu oynayacaq və onlara hərəkət etmək üçün ən təhlükəsiz yerləri göstərəcək. Ola bilsin ki, helikopter astronavtlar üçün ən yaxşı eniş yerlərini müəyyənləşdirməyə də kömək edəcək.

Marsın atmosferi çox nazikdir və aşağı sıxlığa malikdir. Bu da “Qırmızı planet”də uçmağı çox çətinləşdirir. Lakin “Ingenuity” bunun mümkün olduğunu sübut etdi. İndi NASA alimləri “Mars Chopper” uçuşlarının daha da səmərəli olması üçün texnoloji yeniliklərdən istifadə edir. NASA “Mars Chopper” qurğusunun nə vaxt hazır olacağının tarixini açıqlamayıb.

***PÜNHAN***
***XQ***

# Bayram süfrənizi zəhərləməyin!

## *AQTA spirtli içkilərlə ehtiyatlı olmağa çağırır*



**Yeni il bayramı ərəfəsində spirtli içkilərin kütləvi istehlakını nəzərə alaraq, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçıları diqqətli olmağa çağırıb. Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, bəzi xarici ölkələrlə yanaşı, ölkəmizdə də bayram ərəfəsində qanunsuz yollarla saxta spirtli içki hazırlayıb insanların sağlamlığı və həyatı bahasına qazanc əldə etməyə çalışan “işbaz”lara rast gəlinir.**

Həmin qanunsuz fəaliyyətlərin qarşısının alınması sahəsində AQTA və hüquq-mühafizə orqanları tərəfindən mütəmadi qaydada yoxlama-nəzarət tədbirləri, reydlər keçirilir və aşkar olunan qanunazidd hallarla bağlı ən sərt tədbirlər görülür. Bununla yanaşı, istehlakçıların da həmin məsələdə daha diqqətli olması tövsiyə olunur.

Mütəxəssislərin rəyinə görə, kustar üsullarla saxta spirtli içkilərin hazırlanmasında metil (metanol) spirtindən istifadə edilir. İstehlakçıların zəhərlənməsinə səbəb olan metil sənaye spirtidir və onun qida kimi istifadə edilməsi yolverilməzdir. Metil spirtinin az miqdarda qəbulu da orqanizmdə çox ciddi fəsadlara səbəb olur.

Agentlik qeyd edir ki, qida üçün nəzərdə tutulmayan, insan sağlamlığına təhlükə yaradan maddələrin spirtli içki məhsullarının hazırlanmasında istifadə olunması qəti şəkildə yolverilməzdir. Həmçinin vətəndaşların həyat və sağlamlığına qəsd törətdiyi üçün cinayət məsuliyyəti yaradır. Adətən, dələduzlar bu cür qanunsuz fəaliyyətlə gizli və qapalı məkanlarda məşğul olduğundan onların aşkarlanması və ifşa olunmasında vətəndaşların dəstəyinə və bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var.

***XQ***

**İdman**

# Soydaşımız Türkiyə millisinin baş məşqçisidir

**Azərbaycan əsilli sabiq idmançı Ramil Quliyev Türkiyənin atletika üzrə gənclərdən ibarət millisinin baş məşqçisi təyin olunub. Bu barədə 34 yaşlı keçmiş atletin özü məlumat verib. R.Quliyev Türkiyə Atletika Federasiyasının bu vəzifəni ona həvalə etdiyini bildirib. Lakin müqavilənin detalları hələlik bəlli deyil.**




Titullu idmançı ötən ay peşəkar karyerasını başa vurub. Qeyd edək ki, Ramil Quliyev 2011-ci ilə qədər Azərbaycan millisinin şərəfini qoruyub. Sonradan “ay-ulduzlu” formanı geyinən həmyerlimiz 2017-ci ildə dünya, 1 il sonra isə Avropa çempionu adını qazanıb. Ramil Quliyev Türkiyədə 2018-ci ilin ən yaxşı idmançısı seçilib.

# Mahir Emreli yalanı təkzib edir



**“Yazılan məlumatlar yalandır. Baş məşqçiyə etiraz etməmişəm”. Bunu Almaniyanın “Nürnberq” klubunda çıxış edən Azərbaycan millisinin futbolçusu Mahir Emreli deyib.**

27 yaşlı hücumçu Almaniya mətbuatının yaydığı xəbərin doğru olmadığını söyləyib: "Hər şey qaydasındadır. Komandanın son matçlarda uğursuz çıxışına görə mediada baş məşqçi və oyunçular haqqında bu cür məlumatlar dərc olunur. Bilirəm, bu ölkənin mətbuatını oxuyursunuz, mənimlə maraqlanırsınız. Klub daxilində bu yazılanlara çox da önəm vermirlər".

Qeyd edək ki, yerli "nn.de" nəşri Mahir Emrelinin "Köln"ə uduzduqları II Bundesliqanın oyununda erkən əvəzlənməsinə görə baş məşqçi Miroslav Klozeyə etiraz etdiyini yazıb.

# Ançelotti “Real”a 15 kubok qazandırıb

**FIFA Qitələrarası Kubokunun final oyununda İspaniyanın "Real" və Meksikanın "Paçuka" komandaları qarşılaşıb. Görüş İspaniya klubunun 3:0 hesablı qələbəsi ilə başa çatıb. Hesab matçın 37-ci dəqiqəsində açılıb. Hücumçu Kilian Mbappe fərqlənib. 53-cü dəqiqədə "Real" Rodriqonun sayəsində fərqi ikiyə çatdırıb. Vinisius isə 84-cü dəqiqədə penalti ilə matçda nöqtə qoyub.**



İtaliyalı baş məşqçi Karlo Ançelotti “Real”ın tarixinin ən uğurlu məşqçisi olub. 65 yaşlı Ançelotti üçün bu kubok "Real”da 15-ci olub. Bu da ona klubun əfsanəvi baş məşqçisi Migel Munyosun nailiyyətini ötməyə imkan verib. Munyos məşçilik karyerasını “Real”da 14 titulla başa vurub.

***XQ***

**Sağlamlıq**

# İç bəkməzlə limonu – gəlsin azarın sonu



**Antibiotiklər qədər təsirli olan bəkməzə limon sıxıldıqda faydasını ikiqat artırır. Mütəxəssislər bildirirlər ki, son vaxtlar ciddi sağlamlıq problemlərindən qorunmaq üçün əsas vasitə sağlam qidalanmadır.**

Alternativ tibbdə məşhur qarışımlardan biri də bəkməz və limon hesab edilir. Bu qarışım öskürəyə son qoyur, boğazda ağrı, qaşınma və iltihabın qarşısını alır, insanı qrip, soyuqdəymə kimi xəstəliklərdən qoruyur, bədəndəki virusları zərərsizləşdirir, insanı toksinlərdən təmizləyir, tərkibindəki dəmirlə anemiyanın səviyyəsini azaldır, sinir sistemindəki hüceyrələri yeniləyir, enerjini artırır, yuxusuzluğu aradan qaldırır, arıqlamaq üçün əla vasitədir.

Qarışımı hazırlamaq üçün yarım stəkan suya 3 xörək qaşığı bəkməz və təzə sıxılmış yarım limonun suyu əlavə edilir. Qarışım həftədə 6 gün içilir və 1 gün ara verilir. Daha tez və yaxşı fayda əldə etmək üçün maye səhər acqarına qəbul edilir.

O həm də qan əmələ gətirir. Vitaminlər, minerallar və antioksidanlar baxımından da bədənə fayda verir, detoksifikasiyaya kömək edir. Məqsədə çatmaq üçün məlhəm 10 – 40 gün arası içilməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***


BAŞ REDAKTOR

ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor

Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00